

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Heydər Əliyevin 100 illiyi" medalı ilə bağlı qanun layihəsi qəbul edilib



2

# 11 apreldən başlanan zəfər yolu



3

Xalq sözü imzası qədər dəyərli olan Liderə səs verməkdə yanılmayıb

SƏS

№ 062 (6745)

12 aprel 2023-cü il.
Qiymıti 60 qəpik

# Qonşu ölkələri alət etmək niyyətli TƏHLÜKƏLİ OYUNLAR



6

## Ermənistandan qanlı təxribat: üç əsgərimiz şəhid olub



5

## "Green Card"dan kimlər yararlana bilər?




7

## Sizin də eviniz aptekə dönüb?



12



14

## Rusiyalı politoloq: "Ermənistan verdiyi vədləri yerinə yetirmir"

## Ədəb gözləyən ədəbsizlər



15

# “İkitərəfli münasibətlərimiz çox yaxşı səviyyədədir”

## Prezident İlham Əliyev Bosniya və Herseqovinanın təhlükəsizlik nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Bosniya və Herseqovinanın təhlükəsizlik naziri Nenad Neşiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi sahədə çox yaxşı səviyyədə olduğu bildirildi, əlaqələrimizin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi qeyd olundu və bu əlaqələrin genişləndirilməsi üçün önəmli addımların atıldığı vurğulandı.

Söhbət zamanı yüksək səviyyədə keçirilən görüşlərin münasibətlərimizin inkişafı və perspektivlərin müzakirəsi baxımından önəmi qeyd edildi, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi, Bosniya və Herseqovinanın təhlükəsizlik naziri Nenad Neşiçin ölkəmizə səfərinin bu işə töhfə verəcəyinə ümidvarlıq ifadə edildi. Görüşdə COVID-19 dövründə, həmçinin Bosniya və Herseqovinada baş vermiş daşqınlar zamanı Azərbaycanın göstərdiyi dəstək bir daha yüksək qiymətləndirildi.

## Rəsmi xronika

Əli Şamil oğlu Həsənov ”Şərəf” ordeni ilə təltif edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Əli Şamil oğlu Həsənov Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə ”Şərəf” ordeni ilə təltif olunub.

***

Samir Əhməd oğlu Seyidəhmədli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini təyin edilib. Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Novruzəli Davud oğlu Aslanov 1-ci dərəcəli ”Vətənə xidmətə görə” ordeni ilə təltif edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Qeyd edək ki, N.Aslanov üçüncü, dördüncü və beşinci çağırış Milli Məclisin deputatıdır.

***

Aqil Məhəmməd oğlu Abbasov (Aqil Abbas) 1-ci dərəcəli ”Vətənə xidmətə görə” ordeni ilə təltif edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. O, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə mükafatlandırılıb. Qeyd edək ki, A.Abbasın bu ay 70 yaşı tamam olub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cavanşir Hümmət oğlu Paşazadənin ”Şərəf” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda Cavanşir Paşazadənin Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif edildiyi qeyd olunub.

# “Heydər Əliyevin 100 illiyi” medalı ilə bağlı qanun layihəsi qəbul edilib



Milli Məclis Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndinə əsasən Ümummilli Lider Heydər Əliyevin yubiley medalının təsis olunması ilə bağlı qanun layihəsini üçüncü oxunuşda təsdiq edib. AZƏRTAC xəbər verir ki, ”Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalının təsis edilməsi ilə əlaqədar ”Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi parlamentin aprelin 11-də keçirilən plenar iclasında müzakirəyə çıxarılıb.

”Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə”yə əsasən yubiley medalı ilə Heydər Əliyev irsinin tədqiqində və təbliğində xüsusi xidmətlərinə, dövlət quruculuğunda, o cümlədən milli azadlıq hərəkatında xüsusi xidmətlərinə, azərbaycançılıq ideyasının həyata keçirilməsində, dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində xidmətlərinə görə, sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və beynəlxalq əməkdaşlığın inkişafında xidmətlərinə, dövlət müstəqilliyinin qorunub saxlanılmasına və inkişafına, Azərbaycanın tərəqqisinə və şöhrətinin artmasına töhfə verən xidmətlərinə görə, həmçinin ölkənin sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafında xidmətlərinə görə, dövlət idarəçiliyində, dövlət qulluğunda və ictimai-siyasi sahədə səmərəli fəaliyyətinə görə fərqlənən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri təltif oluna bilərlər.

”Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda ordenlərdən sonra taxılır.

Yubiley medalı 999.9 əyarlı qızıl qatı ilə örtüləcək soyuq ştamplama üçün nəzərdə tutulmuş xüsusi tərkibli əlvan metaldan hazırlanan ümumi diametri 42 millimetr olan, bir-birinin üzərinə qoyulmuş iki səkkizguşəli ulduzdan ibarətdir. Medalın ön tərəfində ağ minalı səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış, diametri 26 millimetr olan dairəvi lövhə yerləşdirilib. Bu lövhənin içərisində Heydər Əliyevin barelyefi verilib. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca ”HEYDƏR ƏLİYEV” sözləri, aşağı qövs boyunca ”1923-2023” rəqəmləri yazılıb. Medalı hamar səthli arxa tərəfinin aşağı hissəsində Azərbaycanın Dövlət Gerbinin təsviri ilə bərabər medalın seriyası və nömrəsi göstərilir.

# “Express” nəşri: ”Azərbaycan ”Hirosima”sının dağıdılmış torpaqlarında”

Britaniyanın nüfuzlu ”Express” nəşrində jurnalist Con Varqanın ”Onlar hər şeyi məhv ediblər: Azərbaycan ”Hirosima”sının dağıdılmış torpaqlarında” sərlövhəli məqaləsi dərc edilib. Məqalənin müəllifi Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə iki günlük səfəri zamanı gördüklərini təsvir edir.


EXPRESS
Discount codes Puzzles Horoscopes Express Rated Shop Paper
7°C LOGIN REGISTER
HOME | NEWS | SHOWBIZ & TV | SPORT | COMMENT | FINANCE | TRAVEL | ENTERTAINMENT | LIFE & STYLE
UK POLITICS ROYAL WORLD US SCIENCE WEATHER WEIRD HISTORY NATURE SUNDAY InYourArea
Home > News > World

'They destroyed everything': Inside the war-torn lands of Azerbaijan's 'Hiroshima'

By JOHN VARGA
13:19, Sat, Apr 8, 2023 | UPDATED: 17:14, Sun, Apr 9, 2023
BOOKMARK

Con Varqa Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin böyük məsləhətçisi Araz İmanovun sözlərini sitat gətirir: ”Biz nifrətin bu dərəcədə olacağını gözləmirdik. Onlar hər şeyi məhv ediblər”.

Müəllif ermənilərin tərk etdiyi müdafiə mövqelərinin, dağıdılmış kəndlərin və vaxtilə həyatın qaynadığı şəhərlərin, murdarlanmış məzarlıqların, ölümsaçan minalarla dolu yüz kilometrlərlə ərazinin yanından keçərkən müşahidə etdiyi, işğal dövründə bərbad vəziyyətə salınmış landşaft barədə söhbət açır.

Hər tərəf dağıdılıb, boş qalıb, lakin bu dağıntıların yalnız az bir hissəsi hərbi əməliyyatların nəticələridir. Əksər hallarda bunlar həmin ərazilərdə Azərbaycan xalqının olmasının və onun mədəniyyətinin hər hansı izlərini yox etmək məqsədilə qəsdən törədilmiş əməllərdir.

Məqalədə deyilir: ”Vaxtilə Qarabağ ipək və toxuculuq malları istehsalı, parlaq naxışları ilə diqqəti cəlb edən Qarabağ xalçaları ilə məşhur idi. Qarabağın rəmzlərindən biri olan məşhur Qarabağ atları da burada yaşayır. Keçən ilin may ayında belə atlardan birini Britaniyanın mərhum kraliçası II Elizabetə hədiyyə etmişdilər”.

Müəllif xatırladıb ki, ”Newsweek” jurnalının 16 mart 1992-ci il tarixli nömrəsində Azərbaycanın Xocalı şəhərində mülki şəxslərin erməni qoşunları tərəfindən kütləvi şəkildə qətlə yetirilməsi barədə xəbər dərc edilmişdi. Həmin məqalədə deyilirdi ki, bu insanların çoxu qaçıb xilas olmağa cəhd edərkən yaxın məsafədən güllələniblər. Bəzilərinin sifəti eybəcər hala salınıb, başqalarının başının dərisi soyulub. Təqribən 600.000 azərbaycanlı Qarabağda öz evlərini tərk etməyə məcbur olub və məcburi köçkün vəziyyətinə düşüb. 2020-ci il sentyabrın axırlarında Azərbaycan işğal altında olan ərazilərini azad etməyə başladı. 2020-ci il noyabrın 9-da Moskvanın vasitəçiliyi ilə barışıq əldə edildi, nəticədə Qarabağın çox hissəsi Azərbaycanın nəzarəti altına qaytarıldı.

Con Varqa yazır: ”Qarabağdakı ermənilərin liderləri bu ermənilərin müstəqillik hüququna malik olmasında israr etmələrinə baxmayaraq, BMT Təhlükəsizlik Şurası bu əraziləri Azərbaycanın qeyd-şərtsiz tərkib hissəsi kimi tanıyıb”. Müəllif sonda əlavə edir ki, hazırda iki tərəf arasında gərginlik yüksək səviyyədədir.

# 11 apreldən başlanan zəfər yolu

## Xalq sözü imzası qədər dəyərli olan Liderə səs verməkdə yanılmayıb



Bu gün çox mühüm bir siyasi hadisələrin astanasındayıq. Dünyanın templi ictimai-siyasi həyatı xalqımız və dövlətçiliyimiz üçün böyük əhəmiyyət kəsb edən tarixi hadisə - 2018-ci il aprelin 11-də Azərbaycanda növbədənkənar prezident seçkilərində Prezident İlham Əliyevin dördüncü dəfə xalqın etimadını qazanaraq yüksək səs çoxluğu ilə ölkənin ən ali kürsüsünə yenidən seçildiyinin 5-ci ili olur. Dövlət başçısı bu beş il ərzində verdiyi vədləri yerinə yetirib. Prezident İlham Əliyev "Bizim sözümüz imzamız qədər keçərlidir" ifadəsini əbəs yerə səsləndirməyib. Məhz sözü imzası qədər keçərli olan və 2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərində 86,03 faiz səs toplayan cənab İlham Əliyevi xalqımız yenidən Azərbaycan Respublikasının Prezidenti postunda görmək istədi. Çünki hər bir xalqın dünyada tanınmasında, uğurlar əldə etməsində və təbii ki, dünyada cərəyan edən qlobal proseslərin öndə gedənlərinə çevrilməsində liderlərin xüsusi əhəmiyyəti mövcuddur. Azərbaycanın inkişaf və tərəqqi, eləcə də xalqın rifahı faktorunda İlham Əliyev LİDERLİYİ amili mövcuddur. Artıq 19 ildir ki, Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində perspektiv baxımdan əhəmiyyətli nəticələrin əldə olunmasında öz uğurlu sözünü deyir. Məhz Prezident İlham Əliyevin son illər ərzində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub. Həmçinin, cənab Prezidentin həyata keçirdiyi siyasətin uğurlarını xalqımız görür və yüksək qiymətləndirir. Ona görə də, ümumxalq partiyası olan YAP özünün VI qurultayında cənab İlham Əliyevin prezidentliyə namizədliyini rəsmi şəkildə irəli sürməklə xalqın mövqeyini ifadə etdi. Əslində, bu seçim həm də o demək idi ki, xalqımız cənab İlham Əliyevə səs verərkən Ümummilli Lider Heydər Əliyev siyasətinə yenidən səs vermiş oldu. Və bu gün tarixin, dövlətin və millətin xilaskarlıq missiyasını yerinə yetirən ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, sözü imzası qədər dəyərli olan Qalib Sərkərdə, Prezident İlham Əliyev son 19 ildə müstəqil Azərbaycanı davamlı və dinamik inkişaf yolunda irəliyə aparır. Həmçinin, zəmanəmizin dühasından "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",-qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 19 il ərzində özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən Prezident İlham Əliyevin 19 il öncə söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm" fikirləri ilə real məzmun kəsb etməyə başladı. Bu mərhələnin başlanğıc nöqtəsi 2003-cü il 15 oktyabr tarixli prezident seçkilərində cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin səsini toplayaraq (76,86 %) dövlətin ali rəhbəri seçilməsi ilə qoyuldu. Və Prezidentliyinin ilk 5 ili ərzində cənab İlham Əliyevin dövlətçiliyimiz tarixində yeni missiyasının həll etməli olduğu vəzifələrə Azərbaycanda bir çadır şəhərciyinin belə qalmayacağı, məcburi köçkünlərin sosial müdafiəsinin təşkilinin əsas məsələ olacağı, yoxsulluğun aradan qaldırılması üçün daha səmərəli tədbirlər görüləcəyi, 600 min yeni iş yerinin açılması istiqamətində qısa zamanda real nəticələr əldə olunacağı, regionların iqtisadi inkişafı və aqrar islahatların ikinci mərhələsi ilə bağlı dövlət proqramları hazırlanacağı, sahibkarlığa dövlət qayğısının artıralacağı, transmilli layihələr çərçivəsində ölkənin yeni infrastrukturunun yaradılmasına nail olunacağı və s. daxil idi. İlham Əliyevin prezidentlik fəaliyyətinin qeyd edilən dövrü ərzində sadalanan bütün istiqamətlər üzrə nəzərəçarpacaq nailiyyətlər əldə olundu. Prezident İlham Əliyev hələ 19 il əvvəl bəyan etmişdi ki, prezident seçiləcəyi təqdirdə regionların inkişafına prioritet məsələ kimi baxacaqdır. Və Prezident İlham Əliyevin bu istiqamətdə atdığı mühüm addımlar onun sözü ilə əməlinin eyni gücə malik olduğunu növbəti dəfə təsdiqlədi.

### 2018-Cİ İL 11 APREL TARİXLİ NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ VƏ ZƏFƏRİMİZ

Xalq sözü imzası qədər dəyərli olan cənab İlham Əliyevi ölkəmizin tarixində ilk dəfə olaraq 2018-ci ildə iqtidar Yeni Azərbaycan Partiyası növbədənkənar prezident seçkilərinin keçirilməsi təşəbbüsü ilə aprelin 11-də keçirilən seçkilərdə yenidən seçicilərin böyük dəstəyini, etimadını qazanaraq, dördüncü dəfə prezident seçildi. Seçkidən sonra çox qısa müddət ərzində Azərbaycan vətəndaşlarının sosial-rifah halının daha da yaxşılaşdırılması istiqamətində önəmli, inqilabi addımlar atıldı, əməkhaqları, müavinətlər, pensiyalar artırıldı. Birinci Qarabağ savaşında qəhrəmancasına həlak olmuş şəhidlərimizin ailələrinə birdəfəlik sosial sığorta ödəmələri başa çatdırıldı və illərlə davam etmiş narazılığa son qoyuldu. Ən mühüm addımlardan biri kimi, problemli kreditlərlə bağlı cəmiyyətin böyük üzüntüsünə çevrilmiş bir məsələyə, insanların banklardan əsarətinə son qoyuldu. 2020-ci ilin əvvəllərindən bəri bütün dünyanı cənginə almış koronavirus bəlası özünün dağıdıcı maddi və mənəvi itkiləri ilə hər kəsə, iri şirkətlərə, hətta qüdrətli dövlətlərə böyük zərbə vurdu, ağır itkilrə bais oldu. Dünyanın nəhəng, super gücləri koronavirus pandemiyası qarşısında aciz durumda qaldığı bir zamanda, Prezident İlham Əliyevin rəhbərliyi, müdrik, uzaqgörən, düşünülmüş siyasəti nəticəsində ölkəmiz, xalqımız bu bəladan az itkilərlə qurtulmağı bacardı. Ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatı da daxil olmaqla, bir sıra beynəlxalq qurumlara, o cümlədən onlarca ölkəyə bu bəlanın önlənməsi üçün təmənnasız yardım əlini uzatdı, maliyyə dəstəyi göstərdi. Son 5 ilin ən böyük və ən tarixi hadisəsi isə 2020-ci ilin sonunda baş vermiş Vətən müharibəsi oldu. Prezident seçkiləri zamanı Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün var gücü ilə çalışacağını deyən ölkə başçısı 44 günlük müharibə ilə öz üzərinə götürdüyü tarixi missiyanı uğurla başa çatdırdı. Ali Baş Komandan fəaliyyəti dövründə erməni işğalının aradan qaldırılması üçün yorulmadan çalışırdı. Prezidentin məhşur və dillərdə əzbərə çevrilmiş "Qarabağ Azərbaycandır və nida" fikri 2020-ci ildə öz məntiqi sonluğuna çatdı. Bununla da erməni işğalına son qoyuldu.Prezident seçkilər zamanı və sonrakı mərhələdə xalqa verdiyi sözü reallaşdırdı, 44 gün ərzində Ermənistana və onun havadarlarına layiqli dərs verdi. Noyabrın 10-da kapitulyasiya aktına imza atan Ermənistan baş naziri Nikol Paşinyan, sözün həqiqi mənasında, Azərbaycan xalqı qarşısında diz çökdürüldü. Bir sözlə, erməni ordusunun kürəyi yerə vuruldu, darmadağın olan işğalçılar tarixi torpaqlarımızdan qaçmağa məcbur edildi. Artıq işğaldan azad olunmuş torpaqlarımızdı böyük quruculuq, abadlıq işləri görülür.

Beş il öncə - 11 aprel, 2018-ci il növbədənkənar prezident seçkisində İlham Əliyev dördüncü dəfə xalqın etimadını qazanaraq yüksək səs çoxluğu ilə ölkənin ən ali kürsüsünə yenidən seçildi. Bu tarix həm də Azərbaycan dövlətinin və xalqının növbədənkənar, təxirəsalınmaz və inanılmaz dərəcədə mümkünsüz görünən bir probleminin çözülməsi üçün başlanğıc oldu. Qarabağın azad olunmasının ilk anonsu məhz xalqın, cəmiyyətin 11 aprel 2018-ci ildə Prezidentə yenidən etimadı, inamı oldu. Prezident İlham Əliyev 5 il əvvəl, 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciətində demişdi: "Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq".

### "MƏN ONA ÖZÜM QƏDƏR İNANIRAM VƏ GƏLƏCƏYİNƏ BÖYÜK ÜMİDLƏR BƏSLƏYİRƏM",- VƏSİYYƏTİNİ REALLAŞDIRAN XALQIN PREZİDENTİ

5 il öncə - 11 aprel, 2018-ci il prezident seçkilərində xalqa müraciətində deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyev: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",- vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",- deyərək son 18 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz Qarabağ Azərbaycandır!ımıza, haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyinə və ərazi bütövlüyümüzə, nəhayət Qələbə Zəfərimizə nail olduq!. "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur",- deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"

Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildə ilk dəfə Prezident seçilərkən verdiyi bütün sözünə əməli işləri ilə yerinə yetirmişdi və 2018-ci il 11 aprel seçkilərində bir daha xalq dördüncü dəfə İlham Əliyevi o Ali kürsiyə seçməklə 30 il həlli mümkünsüz edilən Qarabağımızı "Dəmir yumruq" siyasəti ilə Güclü Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitlərinin şücaəti ilə azad edərək Qələbə Zəfərinə nail olduq. Dövlətimizin başçısı İlham Əliyev Dövlət Bayrağı Meydanının açılışında çıxış edərkən demişdi ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaq. Prezident İlham Əliyev 2021-ci ilin yanvarın 14-ü həmin vədini yerinə yetirdi və Şuşa səfəri müzəffər Ali Baş Komandanın sözünün və əməlinin vəhdətinin növbəti nümayişi oldu. Bununla da, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı qaldırdı. Ali Baş Komandanımız Prezident İlham Əliyev çıxışlarında ərazi bütövlüyümüz bərpa edildəndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacağını demişdi. Bu sözlər də artıq reallığa çevrilib və artıq həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. Həmçinin, 2018-ci il, 11 apreldə prezident seçilən İlham Əliyevin ilk fərmanı da istisnasız olaraq şəhid ailələrinə 11 min manatlıq birdəfəlik müavinətin verilməsi barədə oldu. Böyük Vətən savaşına hazırlıq məhz şəhid ailələrinə verilən dəyərdən başlamalıydı və bu addım 44 günlük Vətən savaşının ilk günündən səfərbərlik idarələrinin qarşısına axın edən Azərbaycan gənclərinin simasında öz effektini göstərdi.

### 11 APREL SEÇKİLƏRİNDƏN ÖTƏN 5 İL BƏLKƏ DƏ AZƏRBAYCAN TARİXİNİN ƏN GƏRGİN VƏ TALEYÜKLÜ BİR DÖVRÜ KİMİ YADDAŞLARDA YER ALACAQ

Bütün dünyanı ağuşuna alan COVID-19 pandemiyasının dəhşətli nəticələrini çevik zərərsizləşdirərək ölkə vətəndaşlarının can güvənliyini qoruya bilmiş Prezidentin nə qədər böyük sıxıntılara sinə gərdiyinin hamımız şahidi olduq. O, ölkəni bu bəladan ən az itkilərlə çıxarmaq üçün mobil bir səfərbərlik təşkilatçılığı göstərməklə yanaşı, istər Tovuz hadisələrində, istərsə də 44 günlük savaşda vəhşi düşmən qarşısında qələbəmizi təmin edən böyük Sərkərdə iradəsi və Lider qətiyyəti göstərdi. Xalqın doğru seçimi onun tarixi qələbəsinin təminatı oldu. Bu gün Prezident İlham Əliyev haqlı olaraq dünya siyasətində söz sahibi olan bir lider olaraq qəbul olunur və işğaldan azad olunmuş ərazilərimizin bərpası üçün Böyük Qayıdış missiyasına uğurla rəhbərlik edir. Millətini zəfərə daşıyan liderin əsas dayağı qələbə ruhu yenidən canlanan böyük Azərbaycan xalqının birliyidir. Son dörd ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar davamlı xarakter daşıdı. Bu islahatlar ilk növbədə Azərbaycanın qüdrətinin daha da artmasına xidmət etdi.Prezidentin son dörd ildəki fəaliyyəti, əslində ondan əvvələ qədər nəzərdə tutulan hədəflərə çatmaq üçün qarşıya qoyulan məqsədlər idi. Yəni bu, əvvəlki illərin məntiqi sonluğu, məntiqi davamı idi. Bəzən bunu siyasi rəqiblər qərəzli şəkildə qeyd etmək istəmirlər. Amma siyasi rəqabət reallığı danmaqdan ibarət deyil, yaxşı alternativlər təklif etməkdən ibarətdir.Bu gün dövlət başçısı tərəfindən milli maraqlarımıza cavab verən siyasət yürüdülürsə, bu siyasət istər-istəməz həm bölgənin lider dövləti statusunu qorumağımıza yardımçı olacaq, eyni zamanda da ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə artmasını stimullaşdıracaq.

Bir sözlə, Prezident İlham Əliyevin son dörd illik fəaliyyəti Azərbaycanın gələcək uğurları üçün əlverişli zəmin rolunu oynamaqla, həm də hərtərəfli inkişafını və müasir dünyamızın qlobal çağırışlarından irəli gələn vəzifələrin layiqincə yerinə yetirilməsini təmin edəcək, sabahımız bu günümüzdən daha gözəl və firavan olacaqdır.

**RƏFİQƏ KAMALQIZI**

BAXIŞ BUCAĞI

# Türkiyə: davammı, tamammı?

## 14 may 2023-cü ildə keçiriləcək prezident seçkiləri Ərdoğanın ən rahat seçkisi olacaq

**Təkcə Türkiyə və Azərbaycan yox, bütün dünya baş verəcək tarixi hadisənin nəticələrini gözləməkdədir. Kim udacaq, kim uduzacaq, yaxud kim qazanacaq suallarına cavab tapmaqda hər kəs acizdir. Əslində nəticənin gözləntilərin əksinə olacağını düşünmək belə istəmirsən, amma siyasətin səkkizüzlü olduğunu da unutmayaq. Hələ "saqqız oğurlamaq" üsullarının keçmişin qalığı olmadığını düşündükcə bir az da narahat olursan...**

Söhbət 14 may tarixində qardaş Türkiyədə baş tutacaq parlament və prezident seçkilərindən gedir. Prezidentliyə 4 namizəd var, amma "savaşın" - mübarizənin iki namizəd arasında gedəcəyi şübhəsizdir. Biri Türkiyənin dünya gücünə çevrilməsində misilsiz xidmətlər göstərmiş indiki Prezident Rəcəb Tayyib Ərdoğan, ikincisi isə Türkiyə siyasətçilərindən birinin dediyi kimi qatıldığı bütün seçkiləri uduzan və hər kəsin Qərbin adayı - namizədi olduğu deyilən Kılıcdaroğludur. Düzdür, son sözü sandıq başında xalq deyəcək, amma xalq sandıq başına gedənə qədər olanlar olacaq. Bütün seçkilərdə seçiciləri aldatmaq ənənəsi var. Bu Türkiyədə də belədir, ABŞ-da da, Rusiyada da, Avropada da, Şərqdə də, Qərbdə də. Əsl həqiqət isə kənarda qalır. Kimin bu ölkə üçün nə etdiyini tərəzinin gözünə qoymaq və bundan sonra qərar verməkdə insanlar bir az tənbəllik edir, zərbənin haradan gəldiyinin fərqinə varmırlar.

Qərb dünyası diqtə etməkdə, öz adamını hakimiyyətə gətirməkdə çox həvəsli görünür. Bunun üçün milyardlardan keçir, birinin seçilməsi üçün qazanacağından iki qatına artığını xərcləyir. Təki onun dedikləri olsun və rəqibsiz dünyada yaşasın. Bu gün Türkiyədə, eyni zamanda Azərbaycanda qardaş ölkədə keçiriləcək parlament və prezident seçkilərinin nəticələrindən narahat olanların sayı kifayət qədərdir. Bəli, özgə vaxt olsaydı, yəni Türkiyənin ətrafında qurulmuş tələlərin sayı artmasaydı, Türkiyənin bütün sahələrdə əldə etdiyi misilsiz uğurları həzm edə bilməyən ölkələrin sırası belə sıxlaşmasaydı, bu inkişafı əngəlləmək üçün min bir oyunlar qurulmasaydı hakimiyyət dəyişikliyinə normal yanaşmaq olardı. Düşünərdik ki, indiyədək Türkiyədə hakimiyyətdə kimlər olmayıb ki, bu dəfə də "bay Kemal" olsun. Amma bu seçimin arxasında duran niyyətlərə baxanda məlum olur ki, Türk xalqı nə edir etsin, onu hakimiyyətin kandarına belə buraxmasın. Çünki Kılıçdaroğlu bir Qərb - Amerika projesidir. Türkiyənin əyilməyən başı "Kemali ədəblə" əyilməyə meyllidir.

Diqqət edin, Kılıçdaroğlunu hansı partiya və koalisiya üzvləri dəstəkləyir. Adını da demokratiya qoyublar. Türkiyəni bölməyə, dövlətçiliyini sarsıtmağa çalışan HDP kimi terror yuvası. Bu təşkilatın başında duranlar zindandadırlar, tutulma səbəbləri də dövlətin bütövlüyünə qarşı siyasi fəaliyyətləridir. Üzvləri arasında Türkiyəni qondarma "soyqırımı"nda ittiham edən və bu istiqamətdə çirkli, şər əməllərindən əl çəkməyən ermənilər çoxluq təşkil edir. Niyyətləri də bəllidir, Türkiyəni bir dövlət olaraq məhv etmək, bölmək, parçalamaq və kiçik paylardan birinə də yiyələnmək.

Gəlin iki variant üzərində düşünək. Birinci variant Ərdoğan qalib gəlir, ikinsi variantda isə Kılıçdaroğlu hakimiyyətə gətirilir. Əlbəttə, bu seçimlər arasında kifayət qədər dərin fərqlər var. Biri Türkiyənin gələcəyi, inkişafı, müstəqil siyasəti, xaricdən asılı olmayan iqtisadiyyatı, güclü hərbi sənayesi, xarici təhdidlərə cavab vermək iradəsinə sahib olması kimi keyfiyyətlər uğrunda ölüm-dirim savaşına çıxıb, digəri isə ölkənin gələcəyinin Qərdən alacağı ianələr hesabına keçindirmək niyyətində olan birisidir. Biri özünə, millətinə, dövlətinə güvənən, digəri isə başqasının kölgəsində durub iftiralar yağdıran.

Birinci variantın qəhrəmanı, indiki Cümhurbaşqanı Rəcəb tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının əsasını 14 avqust 2001-ci ildə qoyub. Onun təsisçisi və sədridir. Partiya 2002, 2007 və 2011-ci ildə keçirilən Parlament seçimlərinin qalibi olub. 3 noyabr 2002-ci ildə keçirilən Parlament seçimlərində Ədalət və İnkişaf Partiyası 34,29% səslə birinci seçildi. 550 nəfırlik Milli Məclisdə 365 yer qazandı. 22 iyul 2007-ci il Parlament seçimlərində 46,58% səslə Partiya yenə birinci seçildi. 2007 seçimlərində millət vəkili sayı 22 nəfər azaldı. 12 iyun 2011-ci ildəki seçimlərin qalibi 49,83% səslə ƏİP oldu. Bu dəfə isə millət vəkili sayısı 327 oldu. Ərdoğan hakimiyyətə gələndən sonra Türkiyədə davam edən iqtisadi böhran dayandı, kəskin inflyasiyanın qarşısı alındı. Eyni zamanda Ərdoğan ölkədə böyük korrupsiya qruplarını ifşa edərək məhkəmə önünə çıxartdı. Siyasi sahədə də Türkiyə daha aydın bir siyasi xəttə keçdi. Kipr məsələsində atdığı siyasi addımlarla bu məsələnin həllində daha dinamik bir hal nümayiş etdirdi. Eyni zamanda Amerikanın İraqa müdaxiləsi zamanı Türkiyəni bacardıqca bu məsələdən kənarda tutaraq İraq bataqlığına düşməkdən qorudu. Yaxın Şərq siyasəti ilə dünya güclərinin edə bilmədiyi münaqişənin qeyri-müharibə fazasına keçməsini təmin edə bildi. Türkiyənin Ermənistanla əlaqələr qurmasını tələb edən bəzi qüvvələrə qarşı da dayanan Ərdoğan hökuməti bu məsələdə Azərbaycan torpaqlarının işğaldan azad olmasını əsas şərt olaraq irəli sürdü və bu proses hələ də davam etməkdədir. Göz ardı edilməməsi gərəkən şeylərdən biri isə hakimiyyətin pul siyasəti nəticəsində 2002-ci ildəki 600 milyon dollarlıq xarici borc tamamilə aradan qalxaraq, 2012-ci ildə ölkə 48 milyard dollarlıq müsbət saldoya çatdı.

Türkiyə Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında son 20 ildə böyük tarixi yol qət edərək dünyanın inkişaf etmiş nəhəng sənaye ölkəsinə çevrildi. Modern sənayesi, yeni yexnologiyaların tətbiqi sayəsində əldə edilənlər dünyanı mat qoyub. Türkiyə bu müddətdə bir çox xəyali layihələri gerçəkləşdirdi. Bu gün müdafiə sənayesi sektorunda layihələndirilən məhsulların sayı 11 dəfə artıb, bu sahədə çalışan şirkətlərin sayı 2700-ə çatıb. Ən əsası isə müasir dövrümüzün sensasiyası sayılan silahlı insansız uçuş aparatlarının (SİHA) ordunun arsenalına verməsi, yaxın, dost ölkələrə satışı bu sahədə qardaş ölkənin əldə etdiyi ən böyük uğurlardandır. "Bayraktar Texnoloji" şirkəti qısa zaman kəsiyində "Bayraktar" pilotsuz uçuş aparatlarının, "Akıncı", "Qızılelma" pilotsuz qırıcı təyyarələrinin, "Baryaktar TB3" pilotsuz təyyarələrinin və ən son texnologiyalarla təchiz edilən "TCG Anadolu" desant gəmisinin istehsalı məhz Ərdoğanın hakimiyyəti dövründə əldə edilən uğurların yalnız bir hissəsidir. Türkiyənin operativ-taktiki, orta yüksəklikdə uçan pilotsuz döyüş təyyarələri 2014-cü ildən Türk Ordusunun arsenalındadır. Bu sistemdən Azərbaycan ordusunda da istifadə edilir. Ikinci Qarabağ savaşında məhz "Bayraktar TB2" PUA-ları vasitəsilə düşmənin əsas döyüş məntəqələri sıradan çıxarıldı, silah-sursat anbarları, canlı qüvvəsi məhv edildi.

Türkiyə həm də regionda sülhün, təhlükəsizliyin təmin edilməsində, barışıb qorunmasında çox ciddi işlər görməkdədir. Qardaş ölkənin səni nəticəsində dünyanı bürüyən taxıl böhranının qarşısı alınıb, Rusiya ilə Ukrayna arasında yeganə təmas nöqtəsi türkiyədir desən yanılmarıq. Çünki Türkiyənin səyi və nüfuzu sayəsində müharibə edən tərəflər bir-biri ilə təmas qurur, əsir mübadiləsindən tutmuş taxıl dəhlizinin səmərəli və təhlükəsiz fəaliyyət göstrməsinə qədər dünya güclərinin əldə edə bilmədiyi uğurlara imza atır.

Prezident Rəcəb Tayyib Ərdoğan partiyasının seçki manifestində Türkiyənin gələcək yüz ilindən söhbət açılır. Bu, əslində xalqın, ölkənin inkişafında bir rəhbərin ata biləcəyi ən uğurlu addımlardır. Ədalət və İnkişaf Partiyasının parlament seçkilərində iştirak edəcək namizədlər arasında gənclər və qadınların üstünlük təşkil etməsi diqqət çəkən məqamlardandır. 21 ildir qadınların qarşısındakı maneələri aradan qaldıran, təhsildə, işdə, iş həyatında və siyasətdə qadınları görünür edən AK Partiya 14 may seçkilərində qadın namizədlərinin sayını artırıb. Siyahılarda 113 qadın namizədin adı var. Hər fürsətdə gənclərə güvənini ifadə edən prezident Ərdoğan əvvəlki seçkilərdə olduğu kimi gəncləri də seçilə biləcəkləri yerdən namizədlər siyahısına salıb.

Prezident Ərdoğan dünənki daha bir tarixi addıma imza atıb. Dünyanın ilk SİHA gəmisi, Türkiyənin ən böyük hərbi gəmisi "TCG Anadolu" donanmanın xidmətinə verilib. Bu addım Türkiyənin, xüsusilə Şərqi Aralıq dənizində enerji qaynaqlarına və Mavi Vətən hədəflərinə çatmasında çox mühüm rol oynayacaq. Artıq Ege və Aralıq dənizinin təhlükəsizliyinə cavabdeh "TCG Anadolu" olacaq. NATO-nun güclü tərəfdaşı olan Türkiyə üçün bu, böyük prestijdir.

Bəs Prezident Ərdoğan bütün bu uğurlara imza atarkən onun seçkilərdəki əsas rəqibi hesab edilən Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri və 6-lı blokdan namizədliyi irəli sürülən, Ərdoğanın dediyi kimi, "Bay Kemal" görəsən nə işlə məşğul idi? CHP-də "Yenə bahar gələcək, söz verirsən" şüarı ilə 14 may seçkilərinə hazırlıq gedir və sadəcə hazırlıq. Kamal Qılıcdaroğlu barədə deyiləcək bir fikir də yoxdur. Onun xalqa deyəcəyi və verəcəyi söz yalnız nəzəriyyə ola bilər, vəssalam.Yenə də söz Türkiyə seçicilərinindir . Ərdoğanla davammı, yoxsa tamammı?

**V.VƏLİYEV**









# Ermənistandan qanlı təxribat: üç əsgərimiz şəhid olub

**Aprelin 11-i saat 16:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub. Daha sonra qarşı tərəf minaatan və iriçaplı silahlardan da istifadə etməklə mövqelərimizi atəşə tutmaqda davam edib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alınıb, atəş mövqeləri susdurulub. Ordumuz tərəfindən görülən cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki verib. Hazırda qeyd olunan istiqamətdə nisbi sakitlikdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

Ermənistan tərəfinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları Zalov Vidadi Nizami oğlu, Həsənov Elşad Qabil oğlu və Tağıyev Səbuhi Gündüz oğlu şəhid olub. Müdafiə Nazirliyinin rəhbərliyi şəhid hərbi qulluqçularımızın yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

# "Heydər Əliyevin arzuları həqiqətə çevrilir"

**"Ulu Öndərimiz Heydər Əliyevin yubiley ili-Heydər Əliyev ili ərəfəsində Astanada Heydər Əliyevin adına küçənin açılışı və açılışda Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin iştirakı qürurverici hadisədir və hər iki dövlətin sarsılmaz dostluğunun, qardaşlığının ifadəsidir". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.**

Komitə sədri vurğulayıb ki, dünyanın bir çox ölkəsində olduğu kimi, Heydər Əliyevin adı, fəaliyyəti, ölməz ideyaları Qazax xalqı üçün də əzizdir və başda dövlət rəhbərləri olmaqla qardaş ölkənin vətəndaşları bu müdrik, uzaqgörən siyasətçini, dahi şəxsiyyəti daim böyük məhəbbət və ehtiramla yad edirlər.

"Azərbaycan və Qazax xalqlarını, əsrlərlə davam edən əməkdaşlıq, qarşılıqlı əlaqələr, iqtisadi-siyasi münasibətlərlə bərabər, bu dövlətlərin rəhbərlərinin bir-birlərinə olan dostluq, qardaşlıq duyğuları, istəkləri də birləşdirilmiş və bu münasibətlər günümüzdə özünün ən yüksək mərhələsindədir. Heydər Əliyev adına küçənin açılışında Azərbaycan Prezidenti bu münasibətlərə yüksək qiymət verərək demişdir: "Biz müttəfiqlərik, biz qardaşlarıq, biz dostlarıq, bugünkü mərasim bizim münasibətlərimizin sarsılmazlığına, qardaşlığımıza və qarşılıqlı hörmətimizə daha bir sübutdur. Heydər Əliyevin xatirəsinə bu cür münasibətə, dostluğa, qardaşlığa görə Prezidentə və bütün qazaxıstanlı qardaşlarımıza təşəkkürümü bildirmək istəyirəm".



Bu, adi bir təşəkkür deyil. Heydər Əliyevin türk xalqlarının birliyi, həmrəyliyi uğrunda apardığı mübarizənin bu gün hörmətli Prezidentimiz tərəfindən verilən dəstəyin uğurlarından doğan təşəkkürdür. Artıq türk dövlətləri bir araya gəlməkdə, birləşməkdə və birgə mübarizə aparmaqdadılar. Bu, Türk dünyasının gələcək çətinliklərdən qurtarmaq, dövlətlərin təhlükəsizliyini, həm də inkişafını təmin etmək baxımından çox əhəmiyyətlidir və hər birimizi sevindirir", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Üçüncü dünya müharibəsi başlayır?

**"ABŞ ilə Çin arasında baş verə biləcək müharibənin nə ilə nəticələnəcəyini hər iki ölkə kifayət qədər yaxşı dərk edir. Həm ABŞ, həm də Çin nüvə dövlətidir və hər ikisinin kifayət qədər güclü hərbi potensialı və müttəfiqləri var". Bu sözləri SİA-ya açıqlamasında Rəşad Bayramov bildirib.**



Politoloq qeyd edib ki, bu iki nəhəngin müharibə etməsi, digər ölkələrin də müharibəyə qoşulması ilə nəticələnə bilər: "Bunu Üçüncü Dünya Müharibəsi də adlandırmaq olar. Nüvə əsrində bu müharibənin qalibi olmayacağı da şübhəsizdir. Bunu həm Çin, həm də ABŞ kifayət qədər yaxşı dərk etdikləri üçün belə bir müharibənin baş verməsi ehtimalı zənnimcə, sıfıra bərabərdir. Ümumiyyətlə, ABŞ-ın

**POLİTOLOQ DANIŞDI**

hər hansı bir ölkəni zəiflətmək üçün seçdiyi yol birbaşa müharibə deyil. ABŞ həmişə üçüncü bir dövlətin vasitəsilə müharibə edir. Biz bunu Rusiya-Ukrayna müharibəsinin timsalında gördük. İndi də Çinə qarşı hər hansı bir hərbi əməliyyat olacaqsa, bu yenə də üçüncü qüvvələrin vasitəsilə olacaq. Bu müharibə Tayvanın vasitəsilə ola bilər.

Hamıya məlumdur ki, Tayvanla Çin münasibətləri son dövrlər çox gərginləşib. ABŞ Nümayəndələr Palatasının keçmiş sədri Nelsi Pelosinin Tayvana səfərindən gərginləşən bu münasibətlər son bir neçə gün bundan əvvəl Tayvan liderinin Los Angelesdə ABŞ Nümayəndələr Palatasının spikeri Kevin Makkarti ilə görüşündən sonra daha da pisləşib. Rəsmi Pekin bu görüşə etirazını bildirmişdi. Görüşdən dərhal sonra Çin Tayvan adasının şimalında, cənubunda və şərqində havada və dənizdə döyüş hazırlığı təlimləri və patrul fəaliyyətini birləşdirən əməliyyatlara başladı. Təlimlərdə Çinə məxsus 70 hərbi təyyarə və 11 döyüş gəmisi faktiki olaraq Tayvanı mühasirəyə alıb. Bu isə təbii olaraq Tayvan tərəfindən mənfi qarşılanıb. Nəticədə Çin-Tayvan münasibətləri gərgin fazaya qədəm qoyub".

***Banuçiçək Hüseynli***

# "Xankəndinə qayıdış yaxın vaxtlar reallaşa bilər"



"Ermənilərin Xankəndidən Şuşa yoluna qədər yürüş etməklə öz aləmlərində dünyanın diqqətini Qarabağın "blokadasına" çəkmək istəyiblər. Burada diqqəti çəkən məqam odur ki, sözügedən aksiyada ermənilərin məqsədi Laçın yolunda Azərbaycan ekofəallarının keçirdiyi aksiyanın alternativini yaratmaq olub, amma uğursuz alınıb. Faktiki olaraq onlar uğursuzluğa düçar oldular və gördülər ki, dünyanın heç bir ölkəsindən buna reaksiya olmadı. Baxmayaraq ki, Xankəndidən başlayıb Şuşa yoluna qədər gəliblər. Lakin onların bu cəhdi heç bir rezonans doğurmadı. İstədilər ki, bizim vətəndaşların Laçın yolunda başladıqları mülki hərəkat kimi bir hərəkata başlasınlar, amma alınmadı. Sonda da heç bir nəticə olmadığı üçün qayıdıb getdilər və Tvit atdılar ki, bizim birləşəcəyimiz bir yer varsa, o da Ermənistandır. Bütün bunlar onların uğursuzluğudur". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.

Onun sözlərinə görə, Azərbaycan ekofəallarının iki aydan artıq davam edən aksiyası dövlətin Qarabağ üzərində suveren hüquqlarının tam və birmənalı şəkildə bərqərar olmasına yönəlmiş ictimai aksiyadır: "Ekofəalların aksiyası Qarabağda Azərbaycana aidiyyəti heç bir şübhə doğurmayan qızıl və filiz mədənlərinin separatçılar tərəfindən istismarına qanun çərçivəsində ictimaiyyətin etiraz aksiyası olmaqla yanaşı, beynəlxalq birliyin diqqətini bu vacib məsələyə yönəltdi. Bu, Azərbaycan tərəfinin monitorinqin keçirilməsi məqsədilə tələblərini daha geniş ampluada işıqlandırmaq istəyinin təcəssümüdür. Bununla yanaşı, Laçın dəhlizi vasitəsilə Qarabağa Ermənistandan humanitar yük adı altında silahların daşınmasının qarşısının alınmasıdır. Erməni tərəfi isə bütün bunları Azərbaycanın Qarabağı Ermənistandan təcrid etmək, ermənilərə qarşı iqtisadi embarqo tətbiq etmək istəyi kimi təqdim edir. Bununla bağlı ənənəvi erməni vay-şüvənliyi vasitəsi ilə dünyaya car çəkirlər. Bu məsələlər ətrafında gerçəkdən ajiotaj yaratmaq, beynəlxalq miqyasda rezonans doğurmaq məqsədilə erməni tərəfi müxtəlif vasitələrə müraciət edir. Erməni diasporunun lobbiçilik etdiyi məlum Avropa institutlarının köməyi ilə Azərbaycana qarşı sanksiyaların tətbiqinə çalışır. Onların bununla bağlı məqsədi heç bir şeydir. Onların uğursuz aksiyası göstərdi ki, separatçılar məğlubiyyətə məhkumdurlar. Son nəticə hər şey prinsipi ilə çıxış edən erməni tərəfi "bədbəxt və əzabkeş artsaxlılar" şüarını gündəmdə saxlamağa, qadın fəalları, feministləri mübarizəyə qatmaqla insan haqları ilə bağlı Avropa institutlarının diqqətini bölgədə cərəyan edən hadisələrə yönəltməyə səy göstərirlər. Erməni millətçilərinin bununla bağlı hərəkətlərinə zamanında elmi kommunizmin banilərindən biri olan Fridrix Engels də maraqlı bir fikir söyləyib: "Tarix boyu erməni millətçiləri Böyük Ermənistan naminə ən iyrənc vasitələrə əl atmış, hətta erməni qadınlarının Avropa siyasətçilərinə təsiri üçün məlum xidmətlərindən də istifadə etmişdilər". Bu mənada, əlbəttə, tarix təkrar olunur".

***GÜLYANƏ***

# "Makronun idarəçiliyi fransızları ciddi narahat edir"

""Qocalar ölkəsi" Fransada bir müddətdir baş verən iğtişaşlar sosial ədalətsizliyin, eyni zamanda demoqrafik problemlərin ortaya çıxardığı fəsadlardır. Bəllidir ki, Fransa əhalisinin böyük faizi yaşlı insanlardan ibarətdir, buna görə Fransa "qocalar ölkəsi" kimi xarakterizə olunur". Bu sözləri SİA-ya açıqlamasında "Yeni Müsavat" Media Qrupun redaktoru, "Vətəndaş Maarifləndirilməsi" İctimai Birliyinin icraçı direktoru, siyasi şərhçi Elşad Məmmədli deyib.

Onun sözlərinə görə, insan artımı azdır, uzun onilliklərdir ki, ailələrdə 1, maksimum iki uşaq olur: "Nəticə etibarı ilə fransızların əksəri yaşlılardır, 60-80 yaş civarında olan fransızlar üstünlük təşkil edir. Son 15-20 ildə Fransada əhalinin artım sayı əsasən miqrantların hesabınadır. Habelə, Fransada işləyən kateqoriya, xüsusən ağır işlər, təmizlik işlərini görən əsasən miqrantlardır. Çünki qeyd etdiyim kimi, Fransanın yerli əhalisi əsasən yaşlı insanlardan ibarətdir".

Elşad Məmmədli sözlərinə belə davam edib: "Fransa hökuməti isə pensiya yaşının 2 il artırılması layihəsi üzərində işləyir. Pensiyaya daha tez çıxmaq istəyən insanlar nümayişlərə başladılar, bunun ardınca digər sosial problemlər də qaldırıldı və yaşlılara digər təbəqələr də qoşularaq, aksiyaları genişləndirdilər. Hökumət isə etirazçıların tələbini qulaqardına vurur. Bunun əvəzində Fransa hüquq-mühafizə orqanlarının nümayişləri aqressiv şəkildə yatırtmağa çalışdı, insanları döyənəklə döydülər, bibər qazı ilə boğdular və beləliklə insanlar da adekvat olaraq aqressivləşdi, iğtişaşlar ölkəni bürüdü".

***Ayşən Vəli***

# Qonşu ölkələri alət etmək niyyətli

# TƏHLÜKƏLİ OYUNLAR

**_Qüdsdəki Əqsa məscidinə edilən basqından dərhal sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla İran Prezidenti İbrahim Rəisi arasında olan və İslam dünyasının həmrəyliyinin çox vacib, əhəmiyyətli olduğu xüsusilə vurğulanan telefon danışığı diqqəti cəlb etməyə bilməz. Çünki son zamanlar müşahidə olunan proseslər, İranda baş verən, daha doğrusu, səfirlikdə törədilən terror, həmin ölkədə etirazlar, rəsmi Tehranın qonşu dövlətlərlə münasibətlərindəki soyuqluq və gərginlik onsuz da gözdən yayınan deyil və bütün bunların fonunda iki ölkə prezidentinin telefon danışığı səbəbsiz olmaz._**



İlk baxışdan basqın kimi görünən həmin hadisənin hansısa məkrli niyyətlərə hesablandığı, çirkin oyunlar üçün nəzərdə tutulduğu artıq narahatedici, təhlükəli məqam olaraq görülür. Görünən odur ki, bölgədə sabitlik, stabillik, eləcə də yaranan reallıq-Azərbaycanla Türkiyə arasında birlik, dostluq sayəsində ölkələrimizin dünyada söz sahibi olması hansısa qüvvələrin yuxusunu ərşə çəkib və ən azından bu birliyə, qardaşlığa mane olmaq istəyən hansısa qüvvələr planlı şəkildə əllərindən gələni əsirgəmirlər. Müəyyən terror aktları törətməklə, qarışıqlıqlar yaratmaqla hadisələrin gedişini müsbət istiqamətdən, yöndən döndərmək niyyəti artıq özünü göstərməkdədir ki, bu heç də arzuolunan deyil.

Son günlər rəsmi Tehran ilə Bakı arasında gərginlik də nəzərdən qaca bilməz və heç də təsadüfi sayılmır. İki qonşu ölkə arasında hansısa qüvvələrin narazılıq yaratmaq istəyi, niyyəti təkzib edilə bilməz. Sözsüz ki, hansısa maraqlar, məkrli niyyətlər güdən qüvvələr hadisələrə təsir etmək arzusundadır. Məsələ burasındadır ki, dövlət olaraq İran üçün də bu hal heç qənaətbəxş deyil və son zamanlar arada olan gərginliklər fonunda Azərbaycan və İran Xarici İşlər Nazirlikləri arasında danışıqların baş tutması təsadüfi sayılmır. Deməli, İran tərəfi özü bu gərginlikdən çox narahatdır, baxmayaraq ki, rəsmi Tehran özünü heç də belə göstərmək istəmir, guya soyuq yanaşır. Əslində isə, biz bunun əksini müşahidə edirik. Çünki Azərbaycan və İran xarici işlər nazirlərinin telefon danışıqları barədə hər iki tərəfdən verilən rəsmi açıqlamalarda seçilən cümlələrin ümumi ruhunun mövcud gərginliyin götürülməsinə hesablandığı açıq-aşkar görünür.

Sözsüz ki, Azərbaycan və İran XİN başçıları Ceyhun Bayramov və Hüseyn Əmir Abdullahian arasında baş tutan telefon danışığı ilə gərginliyin dərhal aradan qaldırılacağını söyləmək olmaz. Həmin danışıqların məhz İran-Azərbaycan münasibətlərində körüklənən gərginliyin dərhal aradan götürüləcəyi barədə qənaətə gəlmək yanlış yanaşma və reallıqdan uzaq düşüncə olardı. Bir sözlə, bu danışıqlar gərginliyin artıq aradan qalxdığı, yaxud tez bir zamanda qalxacağı barədə qətiyyən arxayınlıq yaratmamalıdır. Bunu İran tərəfi də belə qəbul edir, Azərbaycan tərəfi də, çünki hansısa qüvvələrin bu gərginlikdə marağı və iştirakı təkzib edilmir.

Təkcə İranın deyil, Azərbaycanın da daxilində münasibətlərin gərgin vəziyyətdə saxlanılmasında maraqlı tərəfin olduğu ortaya çıxır. Son zamanlar casus şəbəkəsinin üzvlərinin saxlanılması bunu təsdiq edir. Təsdiq edir ki, hansısa çirkin oyunlar qurulur və bu oyunlara kimin alət olması hansısa qüvvələr üçün qətiyyən fərq etmir. Onların hələ bundan sonra da sakit durmayacağı təkzib edilə bilməz. Ona görə ki, mövcud vəziyyətdən sui istifadə edilməsi planlaşdırılır və bunun üçün də əldən-ayaqdan gedirlər. Hətta bir neçə qonşu ölkənin eyni zamanda təhlükəli oyunlara çəkmək istəyi və niyyəti də göz önündədir. Əks halda, həmin ölkələrin daxilində qarışıqlıq salmaq planları ortaya çıxmazdı.

Bilirik ki, yaxın zamanda Türkiyədə prezident seçkilərinin keçiriləcəyi gözlənilir və heç şübhəsiz ki, qüdrətli, dünyada söz sahibi olan bir ölkə diqqət mərkəzindədir. Həmin ölkənin də məhz bu ərəfədə müəyyən qarmaqarışıqlıqlara cəlb edilməsi birinci növbədə hədəfdən yayındırmaq məqsədi daşıyır. Çünki Türkiyə elə bir qüdrətli dövlətdir ki, artıq bütün dünya bu dövlətlə hesablaşmaq məcburiyyətindədir, bu dövlətlə hesablaşılır da. Biz bunu hətta Rusiya-Ukrayna müharibəsi fonunda Qərbin sanksiyalarına məhəl qoyulmamasında və qardaş ölkənin öz müstəqil siyasətini yürütməsində də gördük və əmin olduq. Bu da sirr deyil ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan öz qətiyyəti ilə də seçilir və onun mövqeyi, siyasi iradəsi rəqiblərinin ürəyincə deyil. Məhz elə indiki şəraitdə İran-Azərbaycan münasibətlərinin süni şəkildə gərginləşdirilib müharibə həddinə çatdırılması özü, seçkilərə hazırlaşan və daxildən ciddi təhlükələr gözləyən Ərdoğan Türkiyəsini də kimlərinsə zorən bu savaşa çəkmək kimi niyyətinin olduğunu göstərir. Bu həssas siyasi şəraitdə Türkiyə kəşfiyyatının, təhlükəsizlik qüvvələrinin diqqətini içdən, daxildən, əsas hədəflərdən yayındırma məqsədi də artıq bəlli olur. Əsas hədəflərdən Türkiyəni yayındırmaq üçün başqa məsələlərlə yükləmək niyyəti də artıq çoxdan bilinir.

Türk dünyasına, bölgəmizə düşmən gözü ilə baxan qüvvələr bilirlər ki, bu ilin 14 may tarixində Türkiyədə keçiriləcək prezident seçkiləri ümumilikdə regionun geopolitik taleyini həll edəcək bir hadisə olacaq. Çünki bu dəfə seçkidə qalib gələn qaraş ölkə prezidenti cənab Tayyib Ərdoğan öz siyasi iradəsi ilə qətiyyətini də artıracaq, təsir imkanlarını da. Ümumiyyətlə, bu seçkinin ardınca Türkiyə liderinin sözünün, qərarının daha böyük təsir gücünə malik olacağını hər kəs bilir və bu halda regionun taleyini kimlərinsə həll etmək arzuları ürəklərindəcə boğulmuş olacaq. Deməli, cənab Ərdoğanın seçilməməsi üçün, Türkiyədə qarışıqlıq düşməsi üçün can atan qüvvələr bu ərəfədə son imkanları ilə hərəkətə gətiriləcəklər. Hətta bu məqsədlə istənilən ölkə də hədəfə alına bilər.

Etiraf edilməlidir ki, cənab Ərdoğanın son illərdə həyata keçirdiyi Rusiya və İranla yaxınlaşma siyasəti fonunda "3+3" formatının reallaşmasında bzim ölkəmiz, vətənimiz Azərbaycan çox önəmli yer tutur. Ölkəmiz bir növ bağlılıq rolunu oynayır və indiki şəraitdə bunun diqqətdən qaçırılmayacağı, bundan sui istifadə ediləcəyi ehtimalı böyükdür. Xatırladığımız kimi, FETÖ-nün əliylə 2016-cı ildə devirməyə çalışdıqları Ərdoğanın əsas düşmənləri üçün ən zəif nöqtənin də məhz Azərbaycanla bağlı olduğu çox güman ki, indi Türkiyə və ümumilikdə bölgəmizə düşmən kəsilən qüvvələr üçün diqqət çəkəcək məqamdır. Məsələn, Azərbaycan üzərindən "Karlov sui-qəsdi"nə, "təyyarə qalmaqalı"na bənzər ssenarilərlə qurula bilən oyunlar Türkiyə liderinin istər Rusiya, istərsə də İranla münasibətlərinin korlanması deməkdir. Təbii ki, burada da məqsəd bəllidir və Türkiyə liderinin təklənməsi başlıca məqsəd hesab oluna bilər. Sözsüz ki, bu gün Qərbin istəklərini, mövqeyini, münasibətlərini nəzərə almadan öz müstəqil siyasətini yürüdən və elə bu səbəbdən də daim təsir etmək istədikləri Türkiyənin məhz Qərb çətiri altına gətirilməsi niyyəti də təkzib edilə bilməz. Əlbəttə ki, burada Azərbaycandan istifadə etmək planı da mümkün ssenarilər içərisindədir. O baxımdan da cəmiyyətimiz hər zaman olduğundan daha ayıq-sayıq olmalıdır. Ayıq-sayıq olmalıdır ki, hansısa qüvvələr öz çirkin niyyətlərini reallaşdırmaq üçün ölkəmizdə bir ssenari qura bilməsinlər, yaxud ssenariləri baş tutmasın. Bunun üçün isə, ilk növbədə, fitnələrə uymamaq, hər hansı oyuna alət olmamaq birinci şərtdir. Ona görə ki, qonşu ölkələri alət etmək niyyətli təhlükəli oyunlar oynanıldığı və bundan sonra da hələ davam edildiyi göz önündədir və bunu mütləq nəzərə almaq, daha doğrusu, nəzərdən qaçırmamaq lazımdır.

***İnam Hacıyev***

**“Green Card” ABŞ vətəndaşı olmayanların və onların ailələrinin ABŞ-da yaşamaq və işləmək üçün ala biləcəyi daimi yaşayış icazələrini təmin edən rəsmi sənəddir. Ümumilikdə ABŞ-da işləmək qohumluq və ya ”Green Card” almaqla mümkündür.**

”Green Card” Amerika hökuməti tərəfindən Amerika vətəndaşı kimi yaşamağa imkan verən immiqrant vizasıdır. ”Green Card” müraciətiniz qəbul edildikdən və təsdiqləndikdən sonra siz ABŞ-da yaşaya, oxuya və işləyə bilərsiniz.

### Bəs, ”Green Card” almaq üçün hara müraciət etməliyik?

SİA mövzu ilə bağlı araşdırma aparıb. ABŞ Yaşıl Kart müraciəti ümumilikdə üç şəkildə edilə bilər.

### Qohumluq yolu ilə

Valideynlər və bacı-qardaşlar - Uşağı və ya bacısı ABŞ vətəndaşı olan valideynlər

Həyat yoldaşı və uşaqları - Həyat yoldaşı ABŞ vətəndaşı və ya ”Green Card” sahibi olan şəxslər

Nişanlı - 90 gün ərzində ABŞ vətəndaşı ilə evlənəcək nişanlılar

Evliliyə görə - ABŞ vətəndaşı və ya Yaşıl Kart sahibi ilə evlənəcək şəxslər

### Necə müraciət etməli?

Müraciət zamanı ABŞ-da olub-olmamağınızdan və qohumluq dərəcənizdən asılı olaraq, müraciət prosesi və mərhələləri dəyi-



şə bilər. Ümumiyyətlə, proses sponsorunuzun ərizə formasını USCIS-ə təqdim etməsi və ərizə qiymətləndirilib təsdiq olunarsa ”Green Card” alan şəxslə müsahibə ilə davam edir.

Əgər siz artıq ABŞ-da deyilsinizsə, proses konsulluq vasitəsilə həyata keçirilir. Sizə ABŞ-a səyahət etmək üçün İmmiqrant Viza verilir və ”Green Kard”ınız ABŞ-a gəldikdən sonra ümumiyyətlə 45 gün ərzində sizə poçtla göndəriləcək. Müraciət zamanı ABŞ-da olsanız, müsahibə və təsdiqdən sonra qısa müddət ərzində ”Green Kart”ınız sizə göndəriləcək.

### İşləmək yolu ilə müraciət

Məşğul olmaq - ABŞ-lı işəgötürən tərəfindən maliyyələşdirilən şəxslər

Qeyri-adi istedad - Fövqəladə qabiliyyət və ya yüksək akademik dərəcələri olan şəxslər

”Green Card” üçün iş yolu ilə müraciət etmək, müraciət zamanı ABŞ-da olub-olmamağınızdan asılı olaraq dəyişir. Əgər müraciət prosesi zamanı ABŞ-dasınızsa, ”Status dəyişikliyi” etmək üçün USCIS-ə müraciət edərək prosesə başlaya bilərsiniz. Əgər ABŞ-da deyilsinizsə, sizə sponsorluq edən şəxs və ya təşkilat immiqrasiya üçün müraciət edir və sonra siz öz ölkənizdən getməlisiniz.

### İnvestisiya yolu ilə müraciət

Yüksək İnvestisiya - Təyin olunmuş bölgələrə 800 min ABŞ dolları və digər bölgələrə 1 milyon 50 min dollar investisiya edən şəxslər

İnvestisiya ilə ”Green Card” əldə etmək üçün ilk növbədə uyğun investisiya layihəsi




# “Green Card”dan kimlər yararlana bilər?




tapmaq lazımdır. Bunlar birbaşa investisiya edə biləcəyiniz layihələr və ya USCIS tərəfindən təsdiqlənmiş layihələr ola bilər. Bundan sonra, müəyyən edilmiş məşğulluq sahələri üçün minimum 800 min dollar, digər bölgələr üçün isə 1 milyon 50 min dollar sərmayə qoymalı və ərizə təqdim etməlisiniz. İnvestisiyanız ərizəniz təsdiqlənənə qədər əmanətdə saxlanılır və siz ərizənin təsdiqi ilə şərti daimi immiqrasiya edə bilərsiniz. Bu müddət ərzində ABŞ-da deyilsinizsə, əlavə müraciətlərlə konsulluq vasitəsilə prosesi həyata keçirməlisiniz.

### Müraciət üçün hansı sənədlər tələb olunur?

Qanuni mövcudluğunu təsdiq edən sənədlər - Doğum haqqında şəhadətnamə, şəxsiyyət, vətəndaşlıq və buna bənzər sənədlər

Məhkəmə qeydlərinizi sübut edən sənədlər - cinayət qeydi və məhkəmə, məhkumluq, qanuni sanksiyalar

Hazırkı Ailə Vəziyyətinizi Sübut edən Sənədlər - Boşanma Sərəncamı, Nikah şəhadətnaməsi, Əsl nikahı təsdiq edən sənəd, Münasibətin Reallığına Dair Sənədlər

Maliyyə Vəziyyətinizi sübut edən sənədlər - İnvestisiya edilmiş pulun mənbəyi, maliyyə hesabatları, hesab hesabatları kimi sənədlər

Sağlamlıq Vəziyyətinizi Sübut edən Sənədlər - Sağlamlıq Müayinəsi Sənədləri

Cari və ya vaxtı keçmiş ABŞ Viza Sənədləri

Əgər siz artıq ABŞ-dasınızsa, cari statusunuzu və hüquqi girişinizi göstərən sənədlər

Sponsorun ABŞ vətəndaşlığının və ya daimi yaşayış yerinin sübutu

Pasport

### ”Green Card”la Amerikaya gedənlər nə edə bilər?

Onların tələblərinə cavab verdiyiniz müddətcə özəl sektorda və bir çox dövlət sektoru peşələrində işləyə, hətta öz şirkətinizi qura bilərsiniz. Ancaq yadda saxlamaq lazımdır ki, ”Green Card”ın özü sizə iş vermir, yalnız yaşayış və iş icazəsi verir.

### ”Green Card”ın üstünlükləri nələrdir?

Vətəndaşlıq əldə edə bilərsiniz: ”Green Card” aldıqdan sonra Amerika vətəndaşı ilə evlisinizsə, 3 ildən sonra, evli deyilsinizsə, 5 ildən sonra vətəndaşlıq üçün müraciət edə bilərsiniz.

Daimi Yaşayış İcazəniz Var: ”Green Card” sizə daimi yaşayış icazəsi verir və vizalardan fərqli olaraq, onu pozmadığınız və müəyyən müddət verilmişsə, onu yenilədiyiniz müddətcə deportasiya olunmursunuz.

Siz ailə üzvlərinizə sponsorluq edə bilərsiniz: Bəzi ailə üzvləri də sizinlə ”Green Card” ala bilərlər.

ABŞ-a asanlıqla girib çıxa bilərsiniz: Bir ildən çox olmamaq şərti ilə ABŞ-ı tərk edib problemsiz qayıda bilərsiniz.

Amerika daxilində sərbəst səyahət edə bilərsiniz: ”Green Card”la siz dövlətlər və şəhərlər arasında sərbəst hərəkət edə bilərsiniz.

Siz Amerika Qanunu ilə qorunursunuz və Bərabər Mühakimə Edilirsiniz: Amerika vətəndaşları və ”Green Card” sahibləri arasında məhkəmə qarşısında heç bir ikili standart yoxdur.

Sosial yardım və təhsil yardımı ala bilərsiniz: Təhsil xərclərinizi ödəmək üçün dövlət yardımı üçün müraciət edə bilərsiniz. Tələblərə cavab versəniz, sosial yardım üçün də müraciət edə bilərsiniz.

Siz müxtəlif peşələrdə işləyə bilərsiniz:



”Green Card” sizə özəl sektorda və bir çox dövlət qurumlarında işləmək imkanı verir.

**SMM Manager (Sosial Media Marketing Mütəxəssisi) Murad Yazimov:** ”Green Card” və ya rəsmi dili ilə desək ( Permanent Resident Card) bizə ABŞ-da daimi yaşamaq və işləmək hüququnu verən və bu hüququn verildiyini sübut etmək üçün verilən sənəddir.

Bu karta sahib olan şəxslər Amerikada yaşamaq və işləmək hüququndan əlavə olaraq 5 il müddət ərzində heç bir qanun pozuntusuna yol verməsələr və bunu sənədlər ilə sübut etsələr vətəndaşlıq da ala bilər.

### Bu kartı necə əldə edə bilərik?

Amerika birləşmiş statları tərəfindən hər il online bir çəkiliş keçirilir. Çəkilişə qatılma formunu göndərmək üçün ” https://dvprogram.state.gov ” saytına daxil olmaq lazımdır.

### Kimlər müraciət edə bilər?

18 yaşdan yuxarı və ən azı orta təhsil almış. Orta təhsili olmayan vətəndaşlar isə müəyyən olunmuş sahələr üzrə ən azı 2 il iş təcrübəsi sahib olmalıdırlar.

### ”Green Card” müraciəti üçün hansı sənədlər lazımdır?

Ən köhnə halda 6 ay öncəyədək çəkilmiş şəkil. Pasport və son istifadə tarixinin keçilməməsi mütləqdir. Ailəli olanlar üçün həyat yoldaşının və övladlarının da şəkilləri lazımdır. Önəmli məqamlardan biri də odur ki, müraciət edərkən hər bir məlumatı tam dəqiqliyi ilə qeyd etmək lazımdır. Çox xırda bir məlumat belə yanlış olsa, bu, bizim diskvalifikasiya olmamıza (hətta seçilsək belə) səbəb olacaq.

Qalib olacağımız halda viza üçün ABŞ-ın Gürcüstandakı səfirliyinə müraciət etməyimiz lazım olacaq. Viza alınması qalib olduğumuz zamandan sonra 1 il müddətinədək belə çəkə bilər və viza alınması üçün ölkə fərqi olmadan hesabımızda müəyyən məbləğdə pul göstərmək lazımdır ki, ilk aylarda bu bizim ABŞ-dakı xərclərimizi qarşılayacağımıza sübut olsun”.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Tolerantlığın ünvanı:
# Odlar diyarı

**Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub saxlanılır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahədə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib.**




Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkəyə çevrilib. Bu gün ölkəmizdə 2250 məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyət göstərir.

Prezident İlham Əliyev qlobal miqyasda ümumbəşəri dəyərlərin carçısı, dünya miqyasında multikulturalizm, İslam həmrəyliyi ideyalarının fəal təbliğatçısı, mədəniyyətlərarası əməkdaşlığa dair ”Bakı Prosesi”nin müəllifidir. Bu milli-dini birlik ideyası ölkəmizdə dövlət siyasəti səviyyəsində həyata keçirilir. ”Azərbaycan multikulturalizm dəyərlərini təbliğ edən ölkələrdən biridir” - deyən Cənab Prezident multikulturalizm Azərbaycanda həm həyat tərzi, həm də dövlət siyasəti olduğunu bildirib: ”Təsadüfi deyil ki, Azərbaycanda bu istiqamətdə bir çox önəmli addımlar atılmışdır və bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Tədbirlərin bəziləri ənənəvi xarakter daşıyır. Məsələn, Bakı Humanitar Forumu ənənəvi olaraq keçirilir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT tərəfindən dəstəklənir. BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya dini liderlərinin Zirvə görüşləri, yəni, bütün bu tədbirlərin bir məqsədi var - dinlərarası dialoqu möhkəmləndirmək, dini ayrı-seçkiliyə qarşı birgə mübarizə aparmaq, multikultural dəyərləri təbliğ etmək və beləliklə, dünyada gedən müsbət proseslərə öz töhfəmizi verməkdir. Çünki biz yaxşı görürük və mətbuatdan da izləyirik ki, dini zəmində, etnik zəmində, məzhəb zəminində bir çox xoşagəlməz hallar - münaqişələr, qarşıdurmalar, müharibələr, qardaş qanının axıdılması baş verir. Əfsuslar olsun ki, bəzi hallarda psevdodini şüarlar altında cinayətlər törədilir. Biz bu istiqamətdə öz səylərimizi birləşdirməliyik”.

## DÜNYAYA NÜMUNƏ OLAN DÖZÜMLÜLÜK VƏ TOLERANTLIQ MÜNASİBƏTLƏRİ







Azərbaycan Prezidenti Cənab İlham Əliyev bütün sahələrə olduğu kimi, bu sahəyə də ayırdığı diqqət nəticəsində milli-mənəvi dəyərlərimizin yaşadılması, tarixi-dini abidələrimizin bərpası, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində regionun lider dövlətinə çevrilib. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkədə ictimai-siyasi sabitlik, milli-mənəvi birlik, multikultural və tolerant mühit formalaşıb. Dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Ölkədə dini durum, bu sahədə mövcud problemlər, zərərli təriqətlərin təbliği, dini icmaları narahat edən məsələlər dərindən öyrənilir və zaman keçdikcə onların həllində müsbət nəticələr əldə olunur.

Qeyd edək ki, Azərbaycanda konstruktiv sivilizasiyalararası və dinlərarası dialoqun möhkəmlənməsinə kömək edən beynəlxalq tədbirlərin keçirilməsi gözəl ənənəyə çevrilib. Bu gün Azərbaycanda dinlər arasında yaranan dözümlülük və tolerantlıq münasibətləri bütün dünya ölkələri üçün nümunədir.

## ”BÜTÜN TARİXİ, DİNİ ABİDƏLƏRİMİZİ BƏRPA EDƏCƏYİK”

Azərbaycan tolerant ölkə olaraq dünyada tanındığı bir zamanda ermənilər 30 ilə yaxın işğal altında olan dini abidələrimizi dağıtmış, viran qoymuşdular. ”Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülüb”, - deyə Prezident bildirmişdir.

Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması ”Arxeoloji irsin mühafizəsi haqqında” Avropa Konvensiyasına, ”Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” YUNESKO-nun konvensiyasına zidd olsa da işğal altında və Ermənistanda qalan Azərbaycan mədəniyyət abidələrinin əksəriyyəti məhv edilib. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları, tarixi abidələrimizi bərpa edəcək. Erməni vandalları xalqımıza məxsus olan bütün abidələr dağıdıb, yerləyeksan ediblər. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Ermənilərin əxlaqsızlıq, mənəviyyatsızlığının məntiqi olaraq Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla simasız, rəzil olduqlarını göstərmiş oldular. Bu azmış kimi Zəngilan rayonunda olan məscidlərdən də bu məqsədlə istifadə ediblər. Bildiyimiz kimi, Xarici İşlər Nazirliyinin hazırladığı ”Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində İslam dininə aid tarixi və mədəni irsin məhv edilməsi” və ”Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması” adlı hesabatlar hazırlanaraq BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ISESCO-ya, digər beynəlxalq təşkilatlara təqdim edilib.

Erməni vandallığını, vəhşiliyini bütün dünya görməlidir, necə ki, 44 günlük Vətən müharibəsində dünya bunu bir daha görmüş oldu. Erməni vandalizmini və barbarlığını, erməni faşist ideologiyasını gözləri ilə görmüş oldu. Azərbaycanın uğurları, qalibiyyəti, işğaldan azad olunan ərazilərimizdə yerləşən abidələrin ermənilər tərəfindən dağıdılması, təbii ehtiyatların talanması və s. dünya ictimaiyyətinə ardıcıl olaraq çatdırıldı.

Artıq Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayıb. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir.

Azərbaycan işğaldan azad olunan bütün ərazilərimizdə olan tarixi, dini abidələrimizi məscidləri tikəcək, yenidən bərpa edəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, ” bütün tarixi, dini abidələrimizi bərpa edəcəyik”.

***Zümrüd BAYRAMOVA***



# "Azərbaycan dünyanın güc mərkəzinə çevrilir!"

**"2018-ci il aprelin 11-də keçirilən növbədənkənar prezident seçkilərində seçicilərin 84 faizindən çoxunun səsini qazanan cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoydu. Respublikamızda böyük islahatlara start verildi, dayanıqlı, çevik iqtisadi layihələrin əsası qoyuldu". Bu sözləri SİA-ya açıqlamasında deputat Kamilə Əliyeva deyib.**

Onun sözlərinə görə, Prezident cənab İlham Əliyevin prezidentliyi dövründə ölkəmiz böyük inkişaf yolu keçib: "Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzu artmış, iqtisadi cəhətdən ölkəmiz güclü, qüdrətli dövlətə çevrilmiş, vətəndaşlarımızın həyat və yaşayış səviyyəsi yüksəlmiş, Azərbaycanın milli maraqları dövlət siyasətinin prioritetinə çevrilmişdir".

Deputat sözlərinə belə davam edib: "2018-ci il prezident seçkilərində vətəndaşlarımız ölkəmizdə həyata keçirilmiş böyük naliyyətlərə və gələcək daha xoşbəxt həyata səs vermişdilər. Dünyada baş verən siyasi münaqişələr, iqtisadi böhranlar fonunda Azərbaycan stabil və inkişaf edən ölkəyə çevrilmişdir.

Seçkiləri müşahidə edən bütün yerli və xarici ölkələrin nümayəndələri, beynəlxalq təşkilatlar seçkilərin yüksək səviyyədə təşkil olunduğunu və çox şəffaf keçirilməsi barədə müsbət rəylər söyləmişlər. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-2018-ci illərdə BMT, AŞ, NATO və bir sıra nüfuzlu beynəlxalq təşkilatlarda Azərbaycanın irəli sürdüyü təkliflər böyük rəğbətlə qarşılanmış və qəbul edilmişdir. Prezident cənab İlham Əliyevin "Ancaq güclü iqtisadiyyatı olan ölkələr müstəqil siyasət apara bilər" fikri hər zaman öz təsdiqini tapmışdır. 2003-2018-ci illərdə Azərbaycan iqtisadiyyatı dünyada rast gəlinməyən sürətlə inkişaf etmişdir.

Ümumdaxili məhsul 3,2, büdcə gəlirləri isə 13,5 dəfə artmışdır. İqtisadiyyatın bütün sahələrində yüksək artım qeydə alınmışdır. 2 milyona yaxın yeni iş yerlərinin yaradılması əhalimizin həyat səviyyəsini dəfələrlə yüksəltmişdir. Ölkəmizdə idmanın inkişafına və gənclərimizin sağlam böyüməsinə böyük diqqət ayrılmışdır. Müasur tələblərə cavab verən 43 Olimpiya kompleksi tikilib istifadəyə verilmişdir.

Azərbaycanda böyük infrastruktur layihələr həyata keçirilmişdir. Azərbaycan elektrik enerjisi idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlar nəticəsində ölkəmiz dünyada ən çox islahat aparan 10 ölkədən biri olmuşdur.

Azərbaycanda neft-qaz sektorunda böyük layihələrin icrası başa çatdırılmış və beynəlxalq əhəmiyyətli yeni layihələrin təməli qoyulmuşdur. Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verilməklə ölkə iqtisadiyyatımıza böyük gəlirlər gətirdi. 2007-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ərzurum qaz kəməri Azərbaycanı təbii qaz ixrac edən ölkəyə çevirdi. 2018-ci ildə Cənub Qaz Dəhlizi və onun tərkib hissəsi olan TANAP qaz boru xəttinin açılışı oldu. Həyata keçirilmiş bu uğurlu layihələrin nəticəsində bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində böyük rol oynayır.

Prezident cənab İlham Əliyev ölkəmizdə milli həmrəyliyin möhkəmləndirilməsində və xalqın milli ideologiya ideyası ətrafında birləşməsində misilsiz xidmətlər göstərmişdir. 2003-2018-ci illərdə Azərbaycan Ordusunun güclənməsi və ordumuzun müasir silahlarla təmin olunması istiqamətində böyük işlər görülmüşdür. 2016-ci ilin Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun güclü bir ordu olmasını göstərdi. Aparılan iqtisadi islahatların və məqsədyönlü daxil və xarici siyasətin nəticəsində Azərbaycan iqtisadi, siyasi və hərbi cəhətdən güclü bir dövlətə çevrildi. Bu vəhdətin uğurlu məntiqi olaraq Azərbaycan Ordusu 44 günə 30 ilə yaxın işğalda olan torpaqlarımızı işğaldan azad etdi.

Son 10 ildə dünyada qlobal maliyyə böhranının yaşanmasına baxmayaraq ölkəmiz iqtisadi artıma nail olmuşdur. 2014-2015-ci illərdə dünyada neftin qiymətinin 3 dəfəyə qədər azalması və 2020-ci ilin əvvəllərindən başlamış pandemiya böhranından bir çox ölkələr əziyyət çəksə də Azərbaycanda iqtisadi stabillik qorunmuşdur.

Qeyri-neft sektoru, sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı artmışdır. Azərbaycanda səhiyyə, təhsil sistemində də böyük nailiyyətlər əldə olunmuşdur. Bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan siyasi və iqtisadi sahələrdə dünyanın güc mərkəzinə çevrilmişdir".

***Ayşən Vəli***

# "Qərbi Azərbaycana qayıdış mütləq olacaq"

## Qərbi Azərbaycan sakini Teyyub Əzizovun SİA-ya müsahibəsini təqdim edirik:




***- Teyyub bəy, Qərbi Azərbaycanın hansı bölgəsindənsiniz və kəndiniz haqqında nə deyə bilərsiniz?***

- 1951-ci il may ayının 5-də Zəngibasar rayonunda doğulmuşam. 37 il orada yaşadım. 1988-ci ildə doğma torpaqlarımızdan hamımızı çıxartdılar. Uşaqlığım orada keçib. Ali təhsilimi Gəncədə aldıqdan sonra Qərbi Azərbaycanda 22 il müəllim vəzifəsində çalışdım. Çox yaxşı günlərimiz keçib. Elə bil ki, cənnətdə yaşayırdıq. Kəndimizin suyu, torpağı başqa cür idi, çox gözəl təbiəti var idi.

***- Bakıya neçənci ildə və hansı şəraitdə köçmüsünüz?***

- Biz 1988-ci il avqustun 24-də Bakıya gəldik. Kəndimizdən çox pis şəraitdə çıxmışıq. Demək olar ki, bütün əmlakımız orada qaldı. Çox çətinliklə oradakı evimizi Günəşli ərazisində yerləşən mənzil ilə dəyişdim. O zamanlar bizim Bakıya gəlməyimizə embarqo qoymuşdular. Onlar bizi yola vermədilər və bütün əhali kəndi tərk etdi.1988-ci il oktyabrın 2-nə kimi kənddə bir adam qalmadı.

***- Deportasiya prosesindən öncə ermənilərin sizə qarşı münasibəti necə idi?***

- 1988-ci il fevralın 23-də mitinqlər başladı. Mitinqlər başladıqdan sonra bizi heç şəhərə çıxmağa da qoymadılar. Sanki bütün şəhəri blokadaya almışdılar. Əmlakımız, varımız-dövlətimiz hər şey qaldı. Öz əmlakımızı satmağa belə imkan vermirdilər. Əvvəlcə bizim kəndimizdə 14 ev erməni var idi. Onlar bizim qorxumuzdan dillənə bilmirdilər. Elə ki çoxaldılar, bizə qarşı təzyiqlər artmağa başladı, hətta bunun nəticəsində ölənlər də oldu. Ermənilər demək olar ki, vəhşiləşmişdilər. Son 3-4 ay ərzində bizə olmazın əziyyətlər verdilər.

***- 37 ildən sonra Bakıya köçəndə bura necə adaptasiya oldunuz?***

- Bakıya gələndə buranın ab-havası demək olar ki, bizə düşmədi. Çünki Qərbi Azərbaycandan gələn yaşlılar çox idi. Yaşlılar buranın havasına dözmədi. 2-3 ilin içində bizim kənddən təxminən 100-ə yaxın sakin həyatını itirdi. Amasya tərəf dağlıq olduğu üçün oradan gələnlər buradakı istiyə dözə bilmədi. Bizim kəndimiz isə İrəvana yaxın idi və oranın ab-havası ilə buranınkı uyğun gəlirdi. Amma yenə də yer dəyişməyimiz hamımıza pis təsir etmişdi.

***- Qərbi Azərbaycan İcmasının fəaliyyətini necə dəyərləndirirsiniz?***

- Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli çox fəal çalışır. Onun ətrafında ziyalı insanlar toplaşıb. Sanki bütün Qərbi Azərbaycan o icmadadır. Özü də çox savadlı biridir. İcmada da Qərbi Azərbaycana qayıdışla bağlı mühüm işlər görülməkdədir.

Ermənilərin orada qalması müvəqqətidir. Bizim əhali ora köçsə, torpaqlarımız canlanar. Ona görə də Qərbi Azərbaycana qayıdış mütləq olacaq. Əminəm ki, yeni nəsil gedib o torpaqları görsə, birdə geri qayıtmaq istəməyəcək.

***- Əgər qayıdış mümkün olsa, kəndinizdə ilk gedəcəyiniz yer hara olardı?***

- Zəngibasar rayonunda Ağa Dədə adlı bir ocaq var idi. İndi ermənilərin oranı dağıdıb-dağıtmadığını bilmirəm. Ora böyük ziyarətgah idi. Həmin ziyarətgahda nə qədər müəllimlərimiz, alimlərimiz dəfn olunub. Əgər qayıtsam, ilk öncə o ocağa gedərdim, daha sonra isə kəndimi görməyə gedərdim.

***Ləman Əlizadə***

# Bakcell şirkətinin Direktorlar Şurasına yeni təyinat



Bakcell şirkəti Salvador Anqladanın şirkətin Direktorlar Şurasına üzv təyin olunmasını elan edir. Salvador Anqlada telekommunikasiya və İT sahələrində 27 ildən çox iş təcrübəsinə malikdir. O, peşəkar karyerası ərzində Avropada "Telefonica", "O2" və "Dell" şirkətlərində müxtəlif rəhbər vəzifələrdə çalışıb. "Bakcell"in Direktorlar Şurasına təyinatından əvvəl o, 9 il BƏƏ-nin "e&" şirkətlər qrupunun (əvvəlki Etisalat) Biznes üzrə baş direktoru, sonra isə qrupun müəssisə və hökumət qurumlarına rəqəmsal transformasiya xidməti göstərən "e& enterprise" adlı törəmə şirkətinin baş icraçı direktoru vəzifələrini icra edib.

Cənab Anqlada İspaniyanın "Instituto de Empresa" universitetində icraçı MBA (executive MBA) və "Madrid UPM" universitetində sənaye mühəndisliyi üzrə magistr dərəcəsi alıb. O, həmçinin Silikon vadisinin "Singularity" Universitetində icraçı (executive) proqramı və IESE Business Məktəbində PDG proqramını uğurla bitirib.

"Bakcell şirkəti davamlı olaraq öz fəaliyyət sahəsində ən üstün rəqəmsal biznes qurmağa çalışır. Buna görə də biz asan olmayan bu işə öz töhfəsini verə biləcək yüksək təcrübəli insanları şirkətimizə cəlb edirik. Biz Salvador Anqladanın "Bakcell"in Direktorlar Şurasının yeni üzvü təyin olunmasından məmnunuq. Azərbaycanda və daha geniş regionda innovasiyaların tətbiqi və rəqəmsal transformasiyanın həyata keçirilməsinə yönəlmiş fəaliyyətimizi davam etdirdiyimiz üçün onun telekommunikasiya və İT sənayesindəki böyük təcrübəsi bizim işimizə böyük dəyər qatacaq", deyə Bakcell şirkətinin Direktorlar Şurasının sədri və "NEQSOL Holding"in telekom rəhbəri Vasil Latsaniç bildirib.

"NEQSOL Holding"in tərkibinə daxil olan Bakcell Azərbaycanda ən son VoLTE və eSIM texnologiyalarını tətbiq edən ilk mobil operatordur. 2023-cü ilin əvvəlində şirkət Bakının seçilmiş ərazilərində 5G-nin sınaq tətbiqini elan edib. Bakcell şəbəkəsi Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınıb.

NEQSOL Holding doqquz ölkədə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahəsində fəaliyyət göstərən beynəlxalq şirkətlər qrupudur.

# Heydər Əliyev-100

## O, Günəş ömrüdür, sönməyəcəkdir!

# RESENZİYA

**Bu il Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi tamam olur.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilmişdir. Sərəncamda deyilir: Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Bəli, bu il Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin banisi, Azərbaycan xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq müstəqilliyinə qovuşmasına töhfə vermiş qüdrətli şəxsiyyət Heydər Əliyevin ilidir. Bu böyük şəxsiyyətin anadan olmasının 100 illiyi fövqündə Onun həyat və fəaliyyətindən söhbət açır, xalqımızın tale payı olan dahinin Azərbaycan üçün misilsiz xidmətlərindən bəhs edir, gənc nəsillərimizə bənzərsiz insanın millətinin xilaskarı olmasından danışırıq. Danışırıq ki, gələcək nəsillər də Ulu Öndərin xalqımız üçün hər zaman qürur duyduğumuz şəxsiyyət olduğu haqqında məlumatlı olsunlar.

Bu gün isə Böyük şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, şair-publisist İbrahim Yusifoğlunun "O Günəş ömrüdür, sönməyəcəkdir" adlı yeni kitabı haqqında danışmaq istəyirəm. Kitabın annotasiyasında qeyd olunur: Poemada Ulu Öndərin hələ sovet illərində Azərbaycanı geridə qalmış respublikadan qabaqcıllar sırasına çıxarması, onun keçmiş SSRİ-nin rəhbərliyində ən çətin və məsuliyyətli sahələrə məharətlə, yüksək peşəkarlıqla rəhbərlik etməsi, ideoloji işin ustası, mahir bilicisi kimi ürəkdən gələn poetik misralarla məhəbbətlə tərənnüm olunmuşdur.

Kitabda Adil Əliyevin "Heydər Əliyev-böyük millət və dövlət xadimi" məqaləsinin və AMEA-nın professoru Salidə Şərifovanın yazdığı "Poemada Heydər Əliyevin bədii obrazı haqqında" beş hissədən ibarət rəyin yer alması əsərin bədii tərəfi ilə yanaşı, elmi dəyərini də ortaya qoyur və daha oxunaqlı olmasını şərtləndirir.

Müəllif İbrahim Yusifoğlu Böyük şəxsiyyətin ömrünün ayrı-ayrı mərhələlərini özünəməxsus bir şəkildə misralara köçürərək poema janrında yaşatmağa çalışmışdır:

Bir insan ömründən söz açıram mən,
O, Günəş ömrüdür, sönməyəcəkdir.
Səadət verdiyi milyonlar qəlbən,
Onun haqq yolundan dönməyəcəkdir.
Onun böyük olub şöhrəti, şanı,
Qəlbində od vardı hələ yanmağa.
Elə ona görə Azərbaycanı,
Qoymadı içindən parçalanmağa,-

kimi misralar Böyük şəxsiyyətə xalq məhəbbəti ilə yanaşı, həm də Onun xalqına olan məhəbbətini ifadə edir. Eyni zamanda, bu məhəbbətin Vətənin bütövlüyünə, müstəqilliyinə xidmət etdiyini də izhar edir:

Dəf etdi ən çətin, qorxunc anları,
Müstəqil bir dövlət qurdu, yaratdı.
Dünyanı titrədən bəyanatları,
Xalqını tanıtdı, azad yaşatdı.




SSRİ dövrünün ayrı-ayrı illərinə, sovet quruluşunun vədlərinə, repressiya illərinə nəzər salan müəllif sonda ümumi nəticəyə gəlir ki, belə bir qarışıq, təzadlı anda qeyrətli bir oğul qəlbən qoruyurdu Azərbaycanı. O oğul ki,

Buludlar yarıldı, göründü hər yan,
Odlar yurdu nurla, şəfəqlə doldu.
Tanrı göndərdiyi O böyük insan
Xalqının əbədi Lideri oldu.

1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlməsi ilə bütün sahələrdə geriləyən ölkəmizi qabaqcıllar sırasına çıxaran Ulu Öndərin yorulmaz fəaliyyəti şairin misralarında öz əksini belə tapır:

El-obaya can gəldi, can,
Gülüstana döndü hər yan.
Dünya gəzdi Azərbaycan,
Xoş gəlirdi illərimiz,
Heydər idi rəhbərimiz.

"Ağ qızıl"dan dağ dururdu,
"Qara qızıl" bərq vururdu.
Al bayraqlar şan-qürurdu,
Artdı milli sərvətimiz,
Heydər idi rəhbərimiz.

Müəllif tarixin bütün dövrlərində olduğu kimi, həmin illərdə də nankor qonşumuzun torpaqlarımızda gözü olmasını, lakin bunu qorxudan dilə gətirə bilmədiyini də Ulu Öndərin hakimiyyətdə olması ilə əlaqələndirir.

Acgöz qonşu dinənmirdi,
Nə eyləsin, bilənmirdi.
Qorxub torpaq dilənmirdi,
Qorundu kənd, şəhərimiz,
Heydər idi rəhbərimiz.
Fəqət düşmən marığdaydı,
Yol gedirdi, çarıqdaydı,
Gücü saxta tarixdəydi,
Göz dağıydı Öndərimiz,
Heydər idi rəhbərimiz,-

deməklə Heydər Əliyevin hakimiyyət illərində ermənilərin əl-qollarının bağlı olduğunu, qorxudan torpaq adı çəkə bilmədiklərini, bunun üçün başqa bir zamanın marığında olduqlarını misralayıb bənd-bənd edən şair bunu Liderimizin gücü olaraq göstərir, bundan qürur duyduğunu anladır.

20 Yanvar hadisəsindən sonra Naxçıvana qayıdan və burada yaşayan Ulu Öndərə bütün bu əməllərin kimlər tərəfindən törədildiyi gün kimi aydın idi. Elə buna görə də Ali Məclisin 14 dekabr 1990-cı il tarixdə keçirilən sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olunarkən məsələ ilə bağlı çıxış edən Heydər Əliyev deyirdi: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır..."

Şair poemada geniş yer ayırdığı bu hadisəni bütün təfərrüatı ilə misralara köçürüb. Ulu Öndərin bu hadisədən sonra Vətəninə qayıtması, bu hadisəni lənətləməsi və ona münasibəti isə bu misralar arasında xüsusi yer alır:

Çəkinmədi hədələrdən.
Lider kimi öndə durdu.
Sarı, iblis, vəhşilərlə
Odlanmışdı Odlar yurdu.
Qəlb titrədən bəyanatla,
Bu vəhşilik lənətləndi.
Bircə-bircə adlarıyla,
Günahkarlar cərgələndi.
Bu bəyanat çaşqın xalqı,
Qaytarmışdı öz çağına.
Seçib düzü, tapıb haqqı,
Güvəndik Heydər dağına.

*Ardı Səh. 11*

# Heydər Əliyev-100





Əvvəli Səh. 10

## O, Günəş ömrüdür, sönməyəcəkdir!

# RESENZİYA

Ümummilli Liderin Naxçıvanda yaşadığı illər də poemada geniş yer alır və maraqlı bəndlərdə birləşən misraları oxuduqca adam 1990-cı illərin Naxçıvanına qayıdır. 20 Yanvar hadisəsi ilə yanaşı, ermənilərin Sədərəyə hücumu sonralar bir çox həqiqətlərin üstünü açdı. Məlum oldu ki, 20 yanvarda Bakıda törədilən qırğın sadəcə diqqətləri Naxçıvandan ayırmaqdan ibarət olub. Əsas məsələ isə Naxçıvanın işğalı imiş ki, bunu da düşmən həyata keçirə bilmədi.

Şair poemada
Ən böyük dərd-Naxçıvanı
Etmişdilər yalqız ada.
Yerdən, göydən bu diyarı
Bürümüşdü blokada.
Rəhbər kimi yaşamaq da
Bu diyarda çətin idi.
Ulu Öndər öz işində
Bütöv idi, mətin idi,-

kimi misralarla həmin dövrü gözlər önünə gətirməyi bacarır, Naxçıvanın düşdüyü vəziyyəti və Ulu Öndərin naxçıvanlıların xilaskarına çevrilməsini oxunaqlı misralarla oxucunun diqqətinə çatdırır.

1990-ci ildə Azərbaycan böyük fəlakət qarşısında idi. Belə bir dövrdə ölkəni xilas etmək üçün xalq ayağa qalxmışdı. Onun qarşısında isə elə bir seçim dayanmışdı ki, bu seçimlə böyük bir xalq bəladan qurtula da bilərdi, əksinə də ola bilərdi. Xalq isə doğru yolu seçdi. Ulu Öndərin hakimiyyətə gəlməsini tələb etdi. Şair poemada bu tarixi böyük bir ustalıqla canlandırmışdır:

Xalq coşub hayqırırdı:
-Bunu hamı bilməlidi,
Bu ölkəni yaşatmağa
Yalnız Heydər gəlməlidi.
Ulu öndər gəlməlidi,
Bütün səddi yıxmalıdı.
Azərbaycan xoş günlərə
Qurtuluşa çıxmalıdı!

1993-cü ildə xalqın təkidi ilə yenidən Azərbaycanda hakimiyyətə gələn Ulu Öndərin Qayıdışı ilə ölkəmiz Qurtuluş yoluna qədəm qoydu. Bu dövr də poemada maraqlı hissələrdən biridir. Çünki şair bu hissəni daha böyük coşqu və sevgi ilə qələmə alıb:



Fərsiz siyasəti rəhbər bəylərin,
Məhvə aparırdı azadlıq ləli.
Elin Xəzər boyda istək, səyləri,
Bakıya gətirdi ulu Heydəri.
Onun büllur kimi əməllərindən,
Çeşmələr çağladı, çaylar duruldu.
Xalqın Vətən sevər igidlərindən,
Yenilməz, mükəmməl ordu quruldu
İllərlə həllini tapmayan işlər,
Heydər zəkasıyla tapdı həllini.
Onunla baş tutan rəsmi görüşlər,
Dünyada tanıtdı doğma Vətəni.

Çox təbii ki, belə bir Liderin övladı da cənab İlham Əliyev olacaqdı. Dövlətçilik qabiliyyəti, idarəetmə bacarığı, siyasi-hərbi savadı ilə dünyanın həsəd apardığı lider cənab İlham Əliyev. Azərbaycan xalqı qürur duyur ki, bu gün ölkəmizə belə bir atanın övladı, mənəvi və siyasi varisi rəhbərlik edir. Onun Ulu Öndərin yolunu uğurla davam etdirməsinin nəticəsidir ki, bu gün Azərbaycan inkişaf edən dövlətlər arasında yuxarı pillədə yer alır. Cənab Prezidentimizin Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı.

Poemada elə İbrahim Yusifoğlunun da gəldiyi nəticə budur. Torpaqlarımızın işğaldan azad olunması ata vəsiyyətinin yerinə yetirilməsi kimi misralara da çevrilib:

Ata vəsiyyətin oğul Prezident,
Doğrultdu müqəddəs əməllərində.
Yenilməz bir ordu qurub-yaratdı,
Dünyanın qarışıq, sərt illərində.
44 günlük Vətən vuruşlarında,
Yüksəldi ordunun şöhrəti-şanı.
Döyüşlərdə dönüb "Dəmir yumruğ"a,
Tanıtdı dünyaya Azərbaycanı.

Torpaqlarımızın işğaldan azad olunmasını vətəndaş qayəsi ilə ipə-sapa düzən şair 44 günü lirikaya çevirərək bədiiləşdirib. Oxuduqca bütün ruhumuzla 2020-ci ilin payızına qayıtdığımız misraları Zəfər tariximizin əbədi nümunəsi hesab etmək olar. Bu misralar həm də bizimlə hər zaman yaşayacaq qürur tariximizdir:

...Beləcə gur səslə, vüqarlı səslə,
Bütün uğurları açıb söylədi.
Azad torpaqların adların bir-bir,
Bir daha dünyaya bəyan eylədi.
...Füzuli bizimdir,
Cəbrayıl bizimdir,
Zəngilan bizimdir,
Qubadlı bizimdir,
Ağdam bizimdir,
Laçın bizimdir,
Kəlbəcər bizimdir,
Şuşa bizimdir,
Qarabağ bizimdir!
Eşq olsun Azərbaycana!

Poema müəllifinin "Son söz"ü cəmi iki bənddən ibarət olsa da, böyük məna izhar edir. Ulu Öndərin ölməz, əbədi olduğunu, xalqın ürəyində daim yaşayacağını əks etdirən bu misralar həqiqətən də hər bir azərbaycanlının düşüncəsidir:

Bu gün son mənzilin Fəxri Xiyaban,
Qərq olub əbədi çiçək ətrinə.
O Günəş ömrünü dünyaya yayan,
Dönübdür şeirimin qızıl sətrinə.
Bir insan ömründən söz açıram mən,
O mavi göylərdən enməyəcəkdir.
Əbədi bir ömür alıb Günəşdən,
O, Heydər ömrüdür, sönməyəcəkdir!

Hər birimizin qürur duyduğumuz Ümummilli Liderimiz haqqında belə bədii əsərlər nə qədər yazılsa, yenə də azdır. Çünki Onun həyat və fəaliyyəti, xalqına məhəbbəti yüzlərlə belə əsərlərə sığar. Bu baxımdan da hər bir bədii nümunə bizim üçün dəyərlidir. İbrahim Yusifoğlunu ürəyindən gələn səslə misraladığı bu əsəri münasibətilə təbrik edir, ona yeni yaradıcılıq uğurları arzulayırıq.

***Mətanət Məmmədova***



# Sizin də eviniz aptekə dönüb?

*3 günlük müalicə üçün 15 günlük dərman təyin edilir*

***Evinizdə istifadə etdikdən sonra yarıdan çoxu qalan dərman şüşələri, qutuları var? Əgər 3 günlük müalicə kursu üçün 15 günlük dərman almağa məcbur olmusunuzsa, yəqin ki, var. Çünki apteklərdə milliqramı az olan, içində az həb olan dərman şüşəsi olmur, əksər dərmanların qablaşdırması böyük və lazım olduğundan çox olur. 3 günlük müalicə kursu bitdikdən sonra dərman lazım olmur, amma baha qiymətə aldığımız üçün atmaq istəmirik. Bəs neyləməli?***

### Qalan dərmanları neyləmək olar?

Dünyanın ən böyük gəlir sektorlarından biri olan dərman istehsalı həyata keçirdiyi satış taktikaları, həkimlər və əczaçılar üzərində təsir gücü, mediadan aldığı dəstək və beynəlxalq qurumlarla işbirliyi insanlara hər gün bir az da çox zərər verir.

Hər il öncəkindən daha çox xəstəlik yayılır, hər gün başqa bir xəstəliyin yaranması barədə xəbərlər oxuyuruq. Quş və donuz qripləri, hepatitlər, digər infeksion xəstəliklər xofu hamımızda qorxu yaratmışdı, hələ Covid-19 bəlasından sonra kiçik bir qrip yoluxması bizi dərhal həkimə qaçmağa sövq edir. Həkim dərmanı yazır, 3 ya 5 gün istifadə etməyi məsləhət görür, amma gəlin görək biz hansı aptekdə 3-5 günlük istifadə üçün yetərli olan dərman tapa bilərik?

Aldığımız dərmanların əksəriyyəti minimum 15-20 günlük müalicə üçün qablaşdırılıb, istifadədən sonra yerdə qalan dərman lazımsız olur, baha qiymətə aldığımız üçün atmaq da istəmirik, kim, harda və necə gəldi saxlayır, 1-2 ildən sonra təkrar xəstələndikdə istifadə edirik. Bu isə təbii olaraq dərman zəhərlənmələrinə səbəb olur.

### Reseptə niyə ucuz dərman yazılmır?

Dərmanlara güvən hissi də getdikcə yoxa çıxır, həkim resept yazanda xəstə "bahalı dərman yaz, ucuz dərmanın təsiri olmur" deyə minnət də edir. Bəli, bizdə elə bir fikir formalaşdırılıb ki, ucuz dərman saxta və təsirsizdir. Əminliklə demək olar ki, bu gün tibb dünyası dərman sənayesinin nəzarəti altındadır. Daha türkəçarələrdən, təbii müalicə vasitələrindən istifadə yoxdur, dolayısı ilə də ucuz dərman reseptlərə yazılmır. Siz hansı həkimin reseptə qrip üçün itburnu, cökə çayı yazdığını görmüsünüz? Yaxud antibiotik müalicəsi lazım olanda ənənəvi variantını yazan həkim? Əlbəttə ki, yox.

Məsələn, aspirin həbinin 10 ədədlik bağlaması cəmi 20 qəpikdir, qrip və qızdırma əleyhinə təsiri güclüdür, amma siz indiyədək bir həkimin reseptə ənənəvi aspirin yazdığının şahidi olmusunuz? Ola bilməzsiniz, çünki faizə işləyən həkimlər aspirindən faiz əldə edə bilmir. Bunun üçün bu dərmanın firma alternativləri var, 5-8 manat civarında təklif edilir. Yeni müalicə üsulları dərman firmalarının manafeyinə uyğunlaşdırılır. Bu vəziyyət dərman istifadəsinin artmasına, hər il milyardlarla dollarlıq lazımsız dərmanların alınmasına və itkisinə səbəb olur.



### Yalançı epidemiya xəbəri ilə dərman bazarı çiçəklənir

Dərman firmaları mümkün olduğu qədər daha çox dərman satmaq üçün hər yola əl atır, hər vasitəni sınayır. Gizli deyil ki, bu firmaların insan sağlamlığı üçün təhlükəli bir şəbəkəyə çevrilməsində bəzi həkimlərin və əczaçıların da payı var. Firmaların onlara təklif etdiyi faiz qarşılığında həkimdən şəfa gözləyən pasiyendə həm maddi, həm də fiziki zərbə vuran bu "həkimlər" yeri gəldi, gəlmədi lazımsız dərmanları reseptə sıralayır. Daha açıq ifadə etsək, həkimlər xəstələrə tibbin göstərdiyi kimi deyil, firmaların istədiyi kimi yanaşırlar.

Bir çox həkim bilir, amma bir çoxu da bilmir ki, dərman firmalarının xəstələri dərmandan asılı vəziyyətə salması və mümkünsə ömür boyu eyni dərmanı istifadə etməsi məhz həkimin resepti ilə həyata keçirilir. Beynəlxalq oyunlar, ikili siyasət planı yürüdən gizli qüvvələr bütün dünya səviyyəsində yolxucu xəstəliklər yaymaqla dərman satışlarını maksimuma çatdırmaq kimi bir öhdəlik götürüblər. Çünki bu vasitə ilə dərman sektoru "çiçəklənir". Böyük epidemiya planları ilə insanları qorxuya salan, media təbliğatı və Ümumdünya Səhiyyə Təşkilatı vasitəsi ilə qısa müddətdə dünyanın hər yerində yüz milyonlarla doza peyvənd satır və milyardlarla dollarlıq gəlir götürülür.







### Vahid dərman resepti niyə işə yaramadı?

Elə Azərbaycanda da həkimlərin bir çoxunun dərman firmaları və apteklərlə işbirliyi quraraq pasiyentə resept yazdığı isə hamımıza məlumdur. Məlumat üçün qeyd edək ki, ölkəmizdə vahid resept blanklarının təsdiqlənməsi əsasən həkim - aptek - əczaçı şirkətləri münasibətlərində yarana biləcək hər hansı bir neqativ halların aradan qaldırılmasına yönəlmişdi. Daha açıq desək, bu addım həkimlərin dərman firmaları ilə razılaşdırılmış şəkildə dərman yazması hallarının qarşısını almaq məqsədi güdürdü.

Çünki əksər həkimlər xüsusi dərman şirkətlərin hazırladığı resept blanklarından istifadə edirlər ki, bununla da həm dərman firması, həm də həkim gəlir əldə edir. Həkimlər 2 nüsxəli blanka resept yazanda reseptin bir nüsxəsi ikinci blanka həkk olunur. Beləcə blankın biri xəstəyə verir, surətini isə əvvəlcədən anlaşdığı firmaya təqdim etməklə, satılan dərmandan müəyyən faiz əldə edir.

### Həkimlər: "Axı biz neyləyə bilərik?"

Həkim Sülhiyyə Mürsəlova deyir ki, bu məsələdə həkimlik heç nə yoxdur: "Axı mən dərman şirkətinə deyə bilmərəm ki, sən niyə 3 günlük istifadə üçün nəzərdə tutulmuş dərman istehsal eləmirsən? Mən də istərdim pasiyentim zərərə düşməsin, neçə günlük müalicə yazırıqsa ona uyğun miqdarda dərman alsın ki, qalanı atılmasın. Düzdü, elə dərmanlar var ki, dənə ilə almaq olur, amma belesi çox az olur, əksər dərmanlar ağzı bağlı halda satılır., içindən yarısını sata bilmirlər".

Başqa bir həkim həmsöhbətimiz Xanlar Hüseynov isə deyir ki, firma faizləri üçün dərman çox yazılmır: "Axı resept yazdığımız, imza atdığımız o müalicə üçün biz məsuliyyət daşıyırıq, təmiz, təhlükəsiz dərman olmasa məsləhət görmərik. Amma neyləyək ki, qablaşdırma bizlik deyil, firma bir siropu 200 milliqramlıq şüşədə qablaşdırırsa biz ona qarışa bilmərik. Amma siropları ağzı açıldıqdan 6 ay sonra təkrar istifadə etmək olar, sərin və qaranlıq yerdə saxlansa bu mümkündür, evin bir tərəfinə atılaraq qeyri-normal şəraitdə saxlanıbsa təbii ki müəyyən müddətdən sonra qəbul edildikdə zəhərlənmələrə səbəb ola bilər".

***Lalə Mehralı***

ŞƏRH+AKTUAL

# Foreign Affairs:
## "İran Zəngəzur dəhlizinin açılmasına qarşıdır"









Fakt budur ki, İran Zəngəzur dəhlizinin açılmasına qarşı çıxması ilə regional inkişafın qarşısını alır. Xüsusilə, Tehran rejiminin "qırmızı xəttin keçilməsi" və s tipli siyasi avantüraları, habelə Azərbaycanla sərhədlərində irimiqyaslı hərbi təlimlər keçirməsi, eləcə də Naxçıvanla sərhəd ərazilərə "təlim" adı altında qoşun yığması artıq nüfuzlu Qərb medialarının da diqqətindən yayınmır. ABŞ-da dərc edilən və İldə 6 dəfə işıq üzü görən, eləcə də beynəlxalq münasibətlər və siyasət mövzuları ilə tanınan nüfuzlu Firegin Affars dərgisi də sözügedən məsələ ilə bağlı geniş məqalə ilə çıxış edib. Jurnal qeyd edir ki, Zəngəzur dəhlizinin yaradılması Azərbaycanın qurudakı






iki hissəsini - Naxçıvan Muxtar Respublikasını və ölkənin yerdə qalan ərazilərini birləşdirəcək. Lakin belə olan halda İranın Ermənistanla rabitəsi kəsiləcək ki, bu da həmin ölkələrin iki ümumi sərhədləri anlamını daşıyır.

Nəşr yazır: "İran Ermənistanı Avrasiya ilə birləşdirən mühüm tərəf qismində görür və regionun beynəlxalq səviyyədə tanınan sərhədlərinin dəyişikliyinə qarşı çıxış edir, əks halda hərbi güc tətbiq edəcəyi təhdidlərini irəli sürür. Ötən ilin iyulunda İranın ali dini rəhbəri Ayətullah Əli Xamenei Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü zamanı İranla Ermənistan arasında baryerin yaradılması ilə bağlı xəbərdarlıq etmişdi və iddia irəli sürmüşdü ki, bu marşrut "minilliklər boyu mövcud olub".

Foreign Affairs qeyd edir ki, ikinci Qarabağ müharibəsi regionda yeni reallıqları yaradıb və şiə din xadimlərinin hakimiyyəti altında idarə edilən İran xristian ölkə olan Ermənistana iqtisadi dəstək göstərib, hansı ki, Rusiya uzun zaman Ermənistana himayədarlıq edib. "Bununla yanaşı, İsrail və sünni çoxluğu ilə seçilən Türkiyə şiələrin çoxluq təşkil etdiyi Azərbaycanla strateji ittifaqda təmsil olunurlar", deyə nəşr yazır.

Məqaləyə əsasən, Azərbaycanla İran arasındakı münasibətlər özünün ən ağır dövrlərini yaşayır. Xüsusilə, İran Azərbaycanın İsraillə münsibətlərinin yaxşı olmasından güclü təlaş keçirir: "Son illər İran İsrailin Fars körfəzindəki ərəb monarxiyası ilə yaxınlaşmasını müşahidə edir və bu da Tehrana qarşı ümumi düşmənçilik münasibəti ilə bağlıdır. İndi isə iranlılar İsrailin əhalilərinin əsas çoxluğunun türklərdən ibarət olan iki ölkə ilə analoji dinamikasından narahat olmağa başlayıblar".

ABŞ nəşri əlavə edir ki, bu xüsusda İranın Azərbaycanla münasibətləri get-fedə daha gərgin hala doğru inkişaf edir. Belə ki, son iki ildə İranın nizami ordusu və İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) Azərbaycanla sərhədlərdə iri miqyaslı təlimlər keçirib: "Gərginlik yanvar ayında daha da artıb və bu da Azərbaycanın Tehrandakı səfirliyinə edilən silahlı hücumla, bir nəfərin həlak olması, iki nəfərin isə yaralanması ilə bağlıdır. Bakı bu hadisəni terror aktı adlandırdı və səfirlik əməkdaşlarını təxliyyə etdi. İranın rəsmi şəxsləri isə hadisənin səbəblərinin siyasi deyil, mülki olduğunu iddia etdilər".

Foreign Affairs həmçinin bildirir ki, martın 28-də davamlı olaraq anti-İran fikirləri ilə gündəmdə olan Azərbaycan deputatına silahlı hücum olub. Bundan sonra Azərbaycanda İrana işləyən iri şəbəkə ifşa olundu, eləcə də İranın Bakıdakı səfirliyinin 4 əməkdaşı persona non qrata elan edildilər.

*Rövşən RƏSULOV*



Elçin Bayramlı

# "Halal xoşunuz olsun"

### Telekanallara uğur gətirəcək pulsuz teleproqram layihəsi təklif edirəm

**Son günlərdə naməlum mənşəli kolbasa-sosiska mövzusu daha çox müzakirə olunur. AQTA-nın mağazalarda apardığı yoxlamalar zamanı aşkar olunan faktlar bu sahədəki biabırçılıqların kiçik bir qismini ortaya çıxardı. Məsələ heç də, kolbalara tələf olmuş və ya xəstə heyvanların ətinin, ya da broyler tullantılarının vurulmasından getmir. Məlumdur ki, bizim kolbasa sexlərində məmulatlar əsasən ölmüş heyvanların ətindən hazırlanıb. Məsələ ondadır ki, kolbasaların əksərinin tərkibində ət tapılmayıb. Yenə əvvəllər leş əti də olsa ət vururdular.**

Bu sexlərdən birində işləyən uzaq qohumum keçən dəfə bu mövzuda söhbət düşəndə dedi ki, indiyədək Azərbaycan istehsalı olan kolbasa yediyinə görə xəcalət çəkməklə yanaşı, həm də dəhşətə gəlir...

Bizdə əsas problem odur ki, kolbasa və sosiska istehsalı şəffaf deyil. Nəinki şəffaf deyil, hətta aşkar təhlükəlidir. Hamımız tanış-bilişlərimizdən ölmüş heyvanların kolbasa sexlərinə verdikləri haqda məlumatlar eşidirik.

HAŞİYƏ: Onlarla adamın şahid olduğu bir hadisəni burada yazmaq istəyirəm. 2005-ci ildə Tovuz televiziyasının (SmTv) baş redaktoru işləyərkən Düz Cırdaxan kəndində yaşayan bir nəfər mənə müraciət etdi ki, bəs onun inəkləri suvarma kanalının kənarından keçərkən qırılıb düşən yüksək gərginlikli elektrik naqili üzərlərinə düşüb və heyvanlar tələf olub. Xahiş etdi ki, ora bir çəkiliş qrupu göndərim.

Artıq axşam düşdüyündən mən çəkiliş qrupunu sabah göndərdim, iyulun istisində artıq iylənmiş və üzərlərinə həşəratlar yığılmış inəklərin kadrlarını gətirən çəkiliş qrupu mənə məlumat verdi ki, cəsədlərin ətrindən yaxına gedə bilməyiblər, 15-20 metr kənardan çəkiblər.

Süjetdən sonra regionun o vaxtki elektrik enerjisi operatoru "Barmek" kənd sakininə dəyən zərəri ödədi. Bir neçə gün sonra inəklərin sahibi telestudiyaya xeyli şirniyyat alıb gətirdi ki, bəs "sağ olun, beş paşka (1000 manat) kompensasiya adım, inəkləri də aktlaşdırıb pulu alandan sonra (tələf olandan 3 gün sonra- E.B) kolbasa sexinə satdım bir paşka şirvana" (200 manata)... Bu söhbəti eşidən, yarım saat əvvəl telestudiyanın bufetində kolbasa yemiş əməkdaşların halı pisləşdi, hətta biri ürəkbulanmasından dolayı məndən icazə alıb evə getdi...

Bu cür hallar təəccüblü deyil, bunlar hər sexdə baş verir və hamıya da məlumdur. Problem təkcə bu da deyil. Dad, rəng verən, saxlama müddətini artıran kimyəvi maddələrin kolbasalara qatılması ciddi təhlükə yaradır. Son vaxtlar isə əti əvəz edən materiallar tətbiq olunur. Bəzi məlumatlara görə, karton, soya, heyvanların dərisi və sümüyü və sair naməlum mənşəli materiallar tətbiq olunur.

Adi hesablama aparında vəziyyət aydın olur- ətin qiyməti ortalama 15 manat kolbasa 10 manat. Hələ buraya istehsal, daşınma, satış, vergi, kommunal, maaş fondu kimi xərclərlə yanaşı firmanın qazancını da əlavə etmək lazım gəlir. Belə çıxır ki, kolbasa havadan hazırlanır.

Təcrübə göstərir ki, pul cərimələri bu sahədə heç bir effekt vermir. Çünki, belə işbazlar ödədikləri cərimədən 10 dəfə çox pul qazanırlar.

Təklif edirəm ki, ölkə Tv-lərinin birində bir veriliş təşkil edib birbaşa efirdə kolbasa sexlərinin sahiblərinin hərəsinə öz məhsullarından 1 kq yedirdək? Özü də o kolbasaları mağazadan özümüz alıb gətirək haa, özləri ilə gətirməsinlər.

Kim çox yesə, ona mükafat təyin edək. Necə təklifdir? Bu telelayihənin ideya müəllifi kimi qonorar zad istəmrəm- buyursunlar televiziyalarımız bir tok-şou təşkil etsinlər, yaxşı baxılacağına və reklam gətirəcəyinə söz verirəm.

Tamaşaçılar ürəklərindən tikan çıxsın deyə maraqla baxacaqlar görsünlər ki, bu adamlar illərdir xalqa yedirdikləri leş ətini özləri necə "iştahla" yeyirlər. Verilişin adını da tapmışam- "Halal xoşunuz olsun".

# Avropa nəşrləri Ermənistanı ittiham edirlər - Ukrayna xalqının ölümündə...

## Bolqarıstan nəşri: "Kiyev Ermənistana eyham vurur ki, aqressorla ticarətində uduzacaq"

**Son vaxtlar Avropanın bir çox nəşrləri Rusiyanın Ukraynada apardığı müharibəsində Ermənistanın birinciyə dəstəyi haqqında yazmağa başlayıblar. Əsasən, Böyük Britaniya, Rumınıya, Bolqarıstan kimi ölkələrdə dərc edilən aparıcı media səhifələri sözügedən mövzuya geniş yer ayırmaqdadırlar.**

Sanksiyalar altında düşən mülki və hərbi məqsədli məhsulların Rusiyaya göndərilməsində Ermənistanın ayrıca canfəşanlıq göstərməsi ilə yanaşı, bu məsələdə İranla da əlbir olması artıq Avropanın siyasi dairələrini də düşündürməyə başlayıb. Artıq dəfələrlə sübuta yetirilib ki, İranın Rusiyaya verdiyi zərbə dronları, raketlər və s. hərbi məqsədli təchizatlar bilavasitə Ermənistan üzərindən keçirilərək göndərilir. Bu faktlar isə həm də regional təhlükələrin artmasına geniş şəraitlər yaradır.


фakmu
Свят » Армения » Да печелиш от войната. Кремъ
27 Март, 2023 22:18 23 2 089

**Да печелиш от войната. Кремъл заобикаля ембаргото на ЕС и САЩ през Армения**

армения - войната в украйна

***Байдън, Зеленски и Шолц със санкции и разговори притискат Ереван да прекрати реекспорта на забранените стоки към Русия***

Красимир Тодоров
Автор във Fakti.bg

Авторитарният режим на руския президент Владимир Путин заобикаля наложените заради агресията му срещу Украйна ембарго и търговски санкции на ЕС, САЩ и Великобритания през съседни страни от бившия Съветски съюз - най-вече Армения. Това става ясно от статистиката за рязко скочилия за последната година внос от Запада и съответно - износа от Организацията на независимите държави (ОНД) към Руската федерация.

### "Rusiya Avropa İttifaqı, ABŞ və Böyük Britaniya tərəfindən tətbiq edilən ticarət və sanksiyalardan yan keçir"

Sözügedən mövzu ilə bağlı daha bir bolqar nəşri - Fakti.bg İnformasiya Agentliyi çıxış edib. Qeyd edək ki, bu nəşr Bolqarıstanın aparıcı xəbər saytlarının ilk üçlüyündə yer alır. "Rusiya prezidenti Vladimir Putinin avtoritar rejimi Avropa İttifaqı, ABŞ və Böyük Britaniya tərəfindən tətbiq edilən ticarət və sanksiyalardan yan keçir", deyə qeyd edilən məqalədə bildirilir ki, Rusiyanın Ukraynaya qarşı aqressiyasında bəzi keçmiş Sovet İttifaqı ölkələri tranzit rolunu oynayırlar və burada xüsusi seçilən Ermənistandır. Lakin Ukrayna hökuməti də bu faktlardan məlumatlıdır və xəbərdarlıqlarını da edib. "Kiyev Ermənistana eyham vurur ki, aqressorla ticarətində uduzacaq", yazıda vurğulanır.

Bu fakt həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, Ukraynada müharibə başa çatdıqdan sonra Kiyev savaş dönəmində rusların aqressiyasına bu və ya digər şəkillərdə dəstək göstərən bəzi postsovet ölkələri ilə münasibətlərinə yenidən baxmalı olacaq.

### Zelenski xəbərdarlıq etmişdi: "Hər şey Ukraynanın qələbəsindən və müharibənin başa çatmasından sonra dünya ictimaiyyətinin diqqətinə çatdırılacaq"

Əslində, bundan bir neçə vaxt əvvəl Ukrayna prezidenti Zelenski mətbuat konfranslarının birində bəyan etmişdi ki, onda Rusiyanın sanksiyalardan yayınmasına dəstək göstərən bəzi ölkələr haqqında bir sıra məlumatlar var və həmin məlumatların indidən açıqlanması məqsədəuyğun deyil. "Hər şey Ukraynanın qələbəsindən və müharibənin başa çatmasından sonra dünya ictimaiyyətinin diqqətinə çatdırılacaq", deyə Ukrayna prezidenti bildirmişdi.

Ancaq söhbət məhz Ermənistana, üstəlik, ukraynalıların qətlə yetirilmələrində aparıcı rol almağa başlayan İran zərbə dronlarına və raketlərinə gəldikdə artıq bu məsələ kifayət qədər açığa çıxıb və hazırda Avropanın aparıcı media qurumlarının da məlumatları öz təsdiqini çoxdan tapıb.

**Rövşən RƏSULOV**








# Rusiyalı politoloq:
# "Ermənistan verdiyi vədləri yerinə yetirmir"



***Rusiyalı hüquqşünas, ictimai xadim, Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvü Yanis Yukşa "Caliber" analitik mərkəzinə müsahibəsində Ermənistanın apardığı siyasətin nəyə səbəb olacağını şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Ermənistanda xüsusilə son vaxtlar güclənən anti-Rusiya təbliğatını necə qiymətləndirirsiniz? Bu fakt Moskva ilə İrəvan arasında münasibətlərə necə təsir edir?***

- Təəssüf ki, bu gün bir sıra ölkələrdə rusofob ritorika müşahidə olunur və təbii ki, bu fakt Ermənistanda da baş verir. Bu ölkə daxilində gedən proseslərə bütün obyektivliyimlə indiki Ermənistanı bəyənmirəm. Səbəbini izah edəcəyəm. Obrazlı desək, Ermənistan Amerika xidmətlərinin bir hissəsini su basmış, bəzi anlaşılmaz vəsaitləri, bəzi siyasi üstünlükləri öz xeyrinə bölüşdürmək istəyən insanların olduğu kokteylə bənzəyir. Və bu bulanıq kokteyldə bütün ölkələr öz balıqlarını tutmağa çalışırlar.

Təbii ki, Ermənistanda gedən anti-Rusiya proseslərini birmənalı olaraq mənfi qiymətləndirirdim. Ona görə də Ermənistan rəhbərliyinin ən azı bəzi praqmatik mülahizələrə əsaslanaraq, anti-Rusiya isteriyasının eskalasiyasını dayandırmaq üçün kifayət qədər müdrikliyə malik olacağına ümid etmək olar. Ermənistan nəhayət dərk etməlidir ki, onun təhlükəsizliyinin təminatı məhz Rusiyadır. Yalnız bu halda o, real inkişaf şansını saxlaya bilər. Ümid edirəm ki, bu və ya digər şəkildə Yerevan ən yaxın qonşuları ilə münaqişəni həll edə biləcək ki, bu da regionda sülhün qorunması üçün son dərəcə vacibdir.

***- Ermənistan Rusiya və Azərbaycanla Aİ missiyasının öz ərazisində yerləşdirilməsi ilə bağlı razılığa gəlməyib, o, həm də Moskvanın təkid etdiyi Ermənistan-Azərbaycan sərhədinə KTMT missiyasının göndərilməsinin əleyhinədir. Sizcə, yaxın gələcəkdə bu sərhəddə KTMT missiyası peyda olacaqmı?***

- Ermənistan Rusiya ilə Aİ missiyasının öz ərazisində yerləşdirilməsi məsələsini razılaşdırmayıb və əminəm ki, münasibətlərin ümumi kontekstindən kənarda belə hərəkətlər mümkün deyil. Vəziyyət hansısa yolla dəyişərsə və Rusiya Federasiyası ilə Ermənistan arasında münasibətlərə yenidən baxılarsa, o zaman Ermənistan-Azərbaycan sərhədində KTMT missiyasının peyda olması kifayət qədər tez baş verəcək.

***- Ermənistan Qarabağdan nəinki qanunsuz silahlı birləşmələrinin qalıqlarını çıxarmır, hətta ora hərbi texnika və silahların daşınmasını davam etdirir. Bu nəyə gətirib çıxara bilər?***

- Ermənistan verdiyi vədləri çox vaxt yerinə yetirmir. Hesab edirəm ki, regionda hansısa ciddi kataklizmlər baş verməsə, Ermənistan öz dövlətçiliyini tamamilə məhv etməmək üçün çətin ki, Qərb xidmətlərinin və dövlətlərinin yolu ilə getsin.

***- Siz Ermənistana qarşı xoşniyyətlisiniz, amma mübahisə etməyəcəksiniz ki, bu ölkədəki revanşist əhval-ruhiyyə Azərbaycanla yeni toqquşmaların ehtimalını xeyli artırır, elə deyilmi?***

- Revanşist əhval-ruhiyyə var və onlar öz ayaqlarına güllə atmaqla ölkə rəhbərliyini hansısa addımlar atmağa sövq edəcəklər və s. Amma bunun belə olacağını düşünmürəm. Deməli, Qarabağda yeni hərbi toqquşmaların baş verməsi ehtimalı azdır.

***- Bəs Bakı ilə İrəvan arasında sülh sazişinin bağlanma ehtimalı nə qədərdir?***

- Düşünürəm ki, yaxın gələcəkdə bizim görmək istədiyimiz formada sülh sazişi bağlanmayacaq. Çox güman ki, qarşıda hələ çoxlu danışıqlar var və proses ləngiyəcək. Buna baxmayaraq, mən inanıram ki, gec-tez tərəflər sülh sənədi imzalaya biləcəklər.

***- Ermənistanın Rusiyadan tamamilə qopacağı təqdirdə onun gələcəyini necə görürsünüz?***

- Ermənistan hansısa yolla böyük Rusiyanın göbək bağından qopsa, onu xoşagəlməz gələcək gözləyir. Çox güman ki, bu, əhaliyə dəhşətli təhlükələr vəd edən hərbi bazalarla dolu bir növ protektorat olacaq.

***Tərcümə - Elçin Bayramlı***

# Ədəb gözləyən ədəbsizlər

## İctimai yerlərdə ədəb nədir, niyə vacibdir və ən əsası, niyə qəhətə çıxıb?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*





Cəmiyyətin əxlaqına uyğun davranmaq, mövcud dəyərlərə hörmət etmək, nəzakətli və hörmət çərçivəsində hərəkət etməkdir ədəb. Hər nə qədər son illər yoxa çıxsa da, gənclərin əksəriyyətində müşahidə etməsək də, ədəb, əslində, insana öyrədilən ən vacib xüsusiyyətdir. Gözəl əxlaq, ədəb, həya, mədəniyyət insanın zinətidir.

İctimai yerlərdə siqaret çəkib tüstüsünü qarşıdakının üzünə üfürən, tum çırtlayıb qabığını yerə tüpürənlər, saqqız şişirdib insanlara qarşı şar kimi dolduranlar, içdiyi suyun şüşəsini 2 metr yaxınlıqda olan zibil qutusuna atmaqdansa yerə atanlar, hazır qidanın qablaşdırmasını skamyanın taxtaları arasında dürtənlər  Çox rastlaşmısınız, elə deyil?

Parklardakı skamyaların önündən keçmək mümkün deyil, yer tamamilə tum və qida qalıqları olur. Bir neçə saat müşahidə etsək görərik ki, əksəriyyətini gənc nəsil edir. ”Gələcəyimizdir” dediyimiz gənclər bu məsələdə necə deyərlər, ”sinifdə qalırlar”. Çox təəssüf ki, bu, belədir

### Qərb alimləri nə sərsəmləyir?

Hələ bir neçə il əvvəl internetdə bir məqaləyə rast gəlmişdim. ”British Medical Journal”da dərc olunmuşdu. Məqalənin mövzusu ictimai nəqliyyatda yaşlılara yerməklə əlaqəli idi. Alimlər, doktorlar, araşdırmaçılar - bu qəbildən bir çox ekspertin fikirləri verilən məqalədə deyilirdi ki, yaşlı insanları aktiv olmağa təşviq etmək üçün ictimai nəqliyyatda yer verilməməlidir. Yazırdılar ki bunu onların xeyrinə edirsiniz, çünki etdikləri daha çox fiziki hərəkət onları başqalarından daha az asılı edəcək.

Alimlər deyirdi ki, yaşlıların ictimai nəqliyyatda ayaqüstə getmələri, əslində, onlar üçün əla fiziki aktivlik hesab olunur. Onların sağlamlıqlarını nəzərə alın və yer verməklə onlara pislik etməyin. Qısası bizim ədəb, nəzakət, hörmət dediyimiz bu incə davranışa qərb alimləri, sözün həqiqi mənasında, ”tüpürməyi” məsləhət görürlər.

”Yaşlandıqca hərəkətsizliyi deyil, fiziki aktivliyi artırmalıyıq. Ailənizdəki yaşlıları liftlə deyil, pilləkənlərlə hərəkət etməyə təşviq edin. Yaşlı insanlara metro və ya avtobusda öz yerinizi təklif etməzdən əvvəl iki dəfə düşünün. Ayaqüstə dayanmaq onlar üçün əla məşqdir”.

Lift yerinə pilləkanla hərəkət etmək məsləhəti olduqca məntiqlidir, hər gün gəzintiyə çıxmaq, piyada gəzmək sağlamlıq üçün faydalıdır və bununla bağlı çox ciddi araşdırmalar da var. Lakin ictimai nəqliyyatda outran bir gəncin başı üstündə ayaqüstə getməyə çətinlik çəkən bir yaşlı insana hörmətsizlik etmək ədəb, əxlaq çərçivəsində deyil. Hər ”stop”da, avtobusun hər sürət dəyişimində yerində ləngər vuran, ayaqüstə dayanmaq uğrunda mübarizə aparan yaşlı insan üçün bu fiziki hərəkət yox, əziyyətdir. Dəfələrlə şahidi olmuşuq, bu vəziyyətdə müvazinətini saxlaya bilməyib yıxılan sərnişinlər də çox olur.



### Gənclər və yaşlıların oturacaq uğrunda mübarizəsi

Əslində, bu mübarizəyə səbəb yollardakı tıxac, avtobusların sayının az olması, interval müddətinin uzun olması, əhali sayına görə marşruta az avtobus buraxılmasıdır. Üstəlik, ictimai nəqliyyatda sıxlıq sağlamlıq problemləri də yaradır, yoluxucu xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Xəttə az marşrut buraxılanda sərnişinlər təbii olaraq tapdıqları ilk avtobusa minməli olurlar, yer olmasa, sıxlıq olsa belə.

Məsələ də buradan başlayır əslində. Oturanlar hamı kimi gediş haqqını ödədikləri üçün oturmaqda haqlı olduğunu düşünür, ayaqüstə qalanlar isə yaşlarına və cinslərinə hörmət tələb edir. Oturanlar irad bildirir, ”əgər ayaqüstə getmək istəmirsənsə dolu avtobusa minmə”. Əslində, məntiqlə haqlıdır, amma mental düşüncəyə, ədəb və mədəniyyət qaydalarına görə məntiq bu vəziyyətdə geridə qalır. Axı avtobusda oturan 20-25 yaşlı sağlam bir gəncin başının üstündə dayanmış hamilə qadına, qocaya, uşaqlı anaya ”mən yerimin pulunu ödəmişəm” düşüncəsi ilə yer verməməsi normal ədəb, əxlaq qaydalarına da ziddir.

### Kişilər qadınlardan ədəblidir

Əslində, bir çox qadınlar kişilərdən ictimai nəqliyyatda davranış barədə bir qədər mədəniyyət öyrənsələr, yeridir. Çox təəssüflə hər gün gördüyümüz bir mənzərəni yazım. 19-20 yaşlı gənc bir qız 50 yaşlı kişinin yerindən qalxıb ona yer verməsinə razı olur, bunun məhz elə belə də olmalı olduğunu hesab edir, dilucu bir ”sağ ol” da demir, o oturacaqda haqqı varmış kimi oturur.

Əgər yer verməsə kişinin gizlicə şəklini çəkib sosial şəbəkələrə atanlar, xanıma yer verməməkdə qınayanlar basıb cəmiyyəti bit-birə kimi. Qınağa tuş gəlməmək, sosial şəbəkələrdə müzakirə edilməmək üçün o kişilər öz yerlərini dimzəsöyləməz gənc qızlara verməli olur.

Maraqlıdır, bir o qədər də təəccüblüdür ki, 50 yaşlı bir kişi özündən gənc qadının yerindən qalxıb ona yer verməsinə isə heç vaxt razı olmur. Hərçənd bu çox rastlaşdığımız vəziyyət də deyil. Bir az məntiqlə düşünsək, ağır fiziki işdən sonra evə yorğun-arğın dönən bir kişi rəfiqələri ilə bulvarda gəzib dikdaban ayaqqabının yorğunluğunu yaşayan bir qıza niyə yer vermək məcburiyyətində olmalıdır?



### Fiziki problemli kişi avtobusda oturur: Elə şey olar?

Əksəriyyətimiz şahidi olmuşuq, çəliklə və ya qoltuq ağacı ilə yeriyən kişilər avtobusda yalnız öz həmcinsləri tərəfindən oturacaqla təmin olunurlar. Ümumiyyətlə, kişilər avtobusda o qədər sıxışdırılırlar ki, sanki istilaya məruz qalıblar. Avtobusdakı son qalalası - ən sondakı oturacaqlar belə qadınlar tərəfindən işğal edilib.

17 yaşlı autizmli oğlu olan ana ilə həmsöhbət olanda dedi ki, avtobusda oğlumu oturan görən qadınlar gəlib başının üstündə durub çantaları ilə təzyiq edirlər, dümsükləyirlər, oğlum öz dünyasında olur, reaksiya verməyəndə söyüş söyür, təhqir edirlər: ”Mən yorulmuşam nəqliyyatda insanlara oğlumun vəziyyətini başa salmaqdan və məni oğlumun vəziyyətindən çox o insanların münasibəti incidir. Adam qalır lal-susqun. Nə deyəsən? Oğlum avtobusda, metroda özündən böyüklərə yer vermək barədə bilmir deyə ona ədəbsiz, mədəniyyətsiz deyirlər. Nə olsun fiziki problemi yoxdur. Sapsağlam qadınlar söz atır, ağız büzürlər. Axı normal sağlamlığın var, şikəstliyin, əlilliyin yoxdur, ayaqüstə getmək ölüm deyil, uzağı 10 dəqiqə ayaqüstə dayanacaqsan, niyə insanların gününü, əhvalını korlayasan ki? Gərək avtobusda oturmaq üçün kişilərin əli-ayağı yerinə olmasın, ayrı cür imkan verməzlər”.

Həmsöhbətimin dediyində həqiqət var. Elə bu günlərdə şahidi oldum, sərnişini olduğum avtobusa qoltuq dəyənəyi ilə 30-35 yaşlarında bir gənc mindi. Sürücü ona qapıdan qalxmağa kömək etdi, oğlan orta sıralardan birindəki boş yerdə oturdu, qoltuq dəyənəklərini də oturacağın altına itələdi. Ayağının biri dizdən qatlanmırdı, qabağa uzatdı. Yolda olduğumuz 20-25 dəqiqə ərzində olduqca çox qadın o gəncə tərs-tərs baxdı, ”gənclərdə ədəb-mərifət yoxdur, anası yaşda qadınlara yer vermirlər” kimi tənələr eşidildi. Hələ bilərəkdən onun yaralı ayağına toxunanları demirəm

### ”2 uşaqla 30 dəqiqə ayaqüstə gedirəm”

Samirə gənc anadır, 7 yaşlı qızını hər gün avtobusla məktəbə aparır, yanında da 3 yaşlı digər övladı. Əslində, bu yazını yazmağa bir az da onu görməyim səbəb oldu. Eyni avtobusda yol getdik iki gün əvvəl, mən işdən evə, o dərsdən evə. Çiynində uşağın ağır məktəb çantası, hər əlindən bir uşağı tutub, avtobusda bashabasda ayaqüstə getməyə çalışır. Hərəkət boyu ana sağa-sola ləngər vurduqca uşaqlar da onunla bərabər o yana- bu yana sürüklənirdi.

Ayaqüstə dayanan sərnişinlərdən hərəmiz bir uşağı tutduq, anaya kömək məqsədi ilə. Bütün avtobus boyu bir qadın qalxıb o anaya yer vermədi. Anaya yer vermək bir yana, o uşaqları öz qucağına almağı təklif edən də olmadı. Təxminən 30-40 yerli avtobusda bir nəfər də olsun oturmuş kişi sərnişin yox idi, bütün oturacaqlar gənc-yaşlı qadın sərnişinlər tərəfindən işğal edilmişdi. Qadın deməyimə baxmayın, oturanların əksəriyyəti 19-20 yaşlı qızlar idi. Kimisi qulağına qulaqcıq taxıb musiqi dinləyir, kimisi yuxulayır, kimisi kitab oxuyur. Heç biri gözünü qaldırıb baxmır. Dəfələrlə sərnişinlər qızlara müraciət etdi, uşaqlara yer verin dedik, amma eşitməmiş kimi davrandılar. Ananın dayanacağı çatdı, düşdü. Düşərkən ”mən alışmışam artıq, hər gün bu yolu 30 dəqiqə ayaqüstə gəlirəm, yer verməklərini gözləmirəm” dedi.

”Bizim vaxtımızda belə deyildi”, ”bizim dövrümüzdə ədəb, həya vardı”, ”indiki gənclər çox mədəniyyətsidir”, ”bu gənclərə heç tərbiyə verməyiblər” deyən qadınlar da vardı o avtobusda. Rahat oturub körpə uşalqarın avtobusda təhlükəli vəziyyətdə yol getməsini kino izləyirmiş kimi izlədilər. Gənc nəsildən ədəb gözləyənlər də o qadınlar olur ən çox. Nə əkmisiniz ki, nə biçəsiniz?

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
12 aprel
2023-cü il

## Məktəbəhazırlıq üzrə yerdəyişmə dayandırılacaq



15 aprel saat 17:00-da ümumi təhsil müəssisələrində fəaliyyət göstərən məktəbəhazırlıq qruplarında təhsil alan uşaqların yerdəyişməsi prosesi dayandırılacaq. Bu barədə SİA-ya Elm və Təhsil Nazirliyindən xəbər verilib. Bildirilib ki, uşaqların yerdəyişməsi prosesi www.sy.edu.az portalı vasitəsilə həyata keçirilir.

Qeyd edək ki, şagird yerdəyişməsinin elektronlaşdırılması bu prosesdə məktəb və valideyn arasında olan məsafənin azaldılmasına və valideynin təhsil müəssisəsi ilə təmasının daha şəffaf şəkildə təşkilinə xidmət edir.

## Qədr gecəsində hansı əməllər icra olunmalıdır?



"Qədr gecəsi qədr sözündən məlum olduğu kimi qədər, miqdar deməkdir. Yəni, hədislərdə buyurulur ki, Allah-təala bu gecədə mələklərin vasitəsilə onalara əmr edər, yeni bir Ramazana qədər yaranmışların xüsusilə də insanların müqəddəratı qərarlaşdırılar. Biz bu gecədə çalışırıq ki, sübhədək oyaq qalaq. Çünki qədr gecəsinin digər bir adı da Əhya, yəni oyaq qalmaq gecəsidir". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanlar İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev deyib.

Sədr müavini bildirib ki, Allah-təala bu gecəni hətta Peyğəmbərindən belə gizli saxlayıb ki, insanlar əksər gecəni qədr gecəsi bilsin və ibadətlə məşğul olsun: "Peyğəmbər öz hədisində buyurur ki, qədr gecəsi sonuncu 10 günlüyə təsadüf edər. Ona görə Ramazanın son on gününü xüsusi şəkildə keçirirlər ki, qədr gecəsini yaşaya bilsinlər. Qədr gecəsinin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, Allah-təala bu gecədə Peyğəmbərinə Quranı nazil edib. Biz də oyaq qalıb dualar etdikdə Quranın nazil olma zamanını yaşamış oluruq. Allah-təala Qədr surəsində də bu gecənin savab və fəzilətini geniş açıqlaması ilə bizlərə çatdırır. O gecə min aydan qiymətli bir gecədir".

Fuad Nurullayev sözlərinə davam edərək bildirib ki, başqa aylarda belə bir gecə yoxdur: "Müqəddəs Quran elə bir mənbədir ki, onun əzəmətini hər vaxt qorumalıyıq, onun dediklərinə əməl etməliyik. Qədr gecəsində iki rükət Əhya namaz qılınır. Sübh namazına oxşayır amma hər rükətdə 7 ixlas surəsi deyilir. Qədr gecəsində dualar etmək, zikr etmək, namaz qılmaq savabdır. İmkanl olanlar bu gecədə qüsl etsələr yaxşıdır. Qədr gecəsində insanlar öz xətalı səhvlərini nəzərinə gətirib, Allahdan bağışlanmağını istəməlidirlər. Allahı Qurana and verərək Peyğəmbərin, imamların ruhuna and verərək arzu və diləklərinin gerçəkləşməsini istəməlidilər. Bu ibadətlər xüsusilə birgə şəkildə məscidlərdə icra olunur".

*Ləman Əlizadə*

## "Apteklərdəki dərmanlar çox bahalı, həm də keyfiyyətsizdir"

"Ölkəmizdə dərmanların satış qaydaları və keyfiyyəti şok vəziyyət yaradır. Əgər bu belə olmasaydı, insanlar "Filan aptek yaxşıdır" deyib həmin apteki axtarmazdılar. Bizim apteklərdəki dərmanlar həm çox bahalı, həm də keyfiyyətsizdir. Belə ki, dərmanları qəbul edirsən, amma nəticə yoxdur".

SİA xəbər verir ki, bu sözləri Milli Məclisin dünən keçirilən plenar iclasında deputat Razi Nurullayev deyib. Onun sözlərinə görə, alman apteklər şəbəkəsi var ki, burada dərmanlar çox bahalıdır: "Soruşanda da deyirlər ki" "Alman istehsalıdır və ona görə bahalıdır". Niyə vətəndaşları aldadıb onların cibinə girirlər? Dərman ətir deyil ki, deyəsən "Zövq məsələsidir və mən fransız ətri istəyirəm". Yaxud dərman avtomobil deyil ki, deyəsən "Lada yox, Mersedes istəyirəm". Mən alman apteklərinin əleyhinə deyiləm, vətəndaşların aldanmasına qarşıyam.



Qidanın da keyityyətsiz olması vətəndaşların həyatını zəhərləyir. Onlar bu keyfiyyətsiz qidalara görə olan-qalan pulunu da aptekdə dərmanlara xərcləyirlər. Bəzi şirkət kolbasalarının tərkibində ətdən əsər-əlamət yoxdur. Bu nə biyabrçılıqdır?! Ət adı altında onlar nə satırlar?! Belə də zülm və amansızlıq olarmı?! Bu cür saxtakarlıqlar ölkəmizin adına ləkə gətirir. Düşmən ölkələr də bundan istifadə edir. Hər kəs bunun bir cəzası olduğunu bilməidir".

*Ayşən Vəli*

## Bakıda evdən 32 min manatlıq oğurluq olub

**Bakıda evdən oğurluq olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən xəbərə görə, aprelin 7-də Binə qəsəbəsindəki evlərin birindən oğurluq edilməsi barədə polisə məlumat daxil olub. Xəzər RPİ 3-cü Polis Şöbəsinin əməkdaşları tərəfindən müvafiq araşdırma aparılıb və evin həyətindəki saxlanc yerindən dəyəri 32 min manatdan çox olan məişət əşyalarının qeyri-aşkar şəraitdə oğurlanması məlum olub.**



Keçirilən əməliyyat tədbirləri ilə oğurluq əməlində şübhəli bilinən Ağdaş rayon sakini, əvvəllər məhkum olunmuş Elmin Məmmədov müəyyən olunaraq saxlanılıb. Araşdırma aparılır.

## Yoncanın qiyməti həddindən artıq bahalaşacaq- SƏBƏB?



**"Beynəlxalq Epizodik Büro vasitəsilə bütün dünya ölkələrinə bitki sağlamlığına təsir edən və yoluxmuş bitkilər barədə məlumat verilir. O cümlədən, Azərbaycana da bu məlumat ötürülür. Çox yaxşı haldır ki, AQTA beynəlxalq təşkilatın informasiyalarını təqib edir". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib.**

Onun sözlərinə görə, adı çəkilən ölkələrdən Azərbaycana idxal olunan məhsullarda bitki sağlamlığı üçün təhlükəli orqanizmlər müşahidə olunub: "Bu orqanizmlərin insana zərəri yoxdur. Lakin bitkilərdə yoluxucu xəstəliklər yaranmasına təsir edə bilər. Buna görə də haqlı olaraq, məhdudiyyət qoyulub.

Azərbaycan ətraf mühitinin qorunması üçün atılan addımlar və qoyulan məhdudiyyətlər ola bilsin ki, bazarda bəzi məhsulların qiymətinin artmasına səbəb ola bilər. Bu gözlənilən prosesdir. Lakin Azərbaycan azad bazar iqtisadiyyatı şəraitindədir, biznes qurumlar üçün kifayət qədər rahat şərait yaradılıb. Başqa ölkələrdən çatışmayan məhsullar Azərbaycana gətirilə bilər. Xarici ölkələrdə, İranda, Rusiyada baş vermiş bitki sağlamlığına zərər vuran mikroorqanizmlərin Azərbaycanda qarşısının alınması təbii və vacibdir. Çünki əks halda daha pis nəticələrlə qarşılaşmaq mümkün hal alır.

Dünən bizə gələn məlumatda göstərilir ki, xüsusən Beyləqan rayonunda yonca bitkisinə çox ciddi bakteriya daraşıb və ot tədarükü məsələsi çox ağır vəziyyətdədir. Belə olan təqdirdə heyvanlar üçün yem mənbəyi olan yoncanın qiyməti həddindən artıq qalxacaq. Bu isə ətin qiymətinə təsir edəcək. AQTA-nı Beyləqan rayonu ilə əlaqə saxlayıb, lazımi tədbirlər görməyə dəvət edirəm".

*Səbinə Hüseynli*

## ELAN

Şamilov Şamil Əlveyis oğlunun adına 1989-cu ildə Bakı Politexnik Texnikumu tərəfindən verilmiş diplom itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000